22 may 2024 №38 (2103)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Son görüşümüz tarixi bir görüş idi

### “Əldə edilmiş bütün razılaşmalar, əminəm ki, icra ediləcək”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub. Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin mayın 19-da helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar başsağlığı verib.

səh. 2

## Prezident Cəbrayılda dörd kəndin, Zəngilanda Mincivan qəsəbəsinin təməlini qoyub



Xəbər verildiyi kimi, Prezident İlham Əliyev mayın 18-də Cəbrayıl və Zəngilan rayonlarına səfər edib.

Dövlətimizin başçısı Cəbrayıl rayonunda daha dörd yaşayış məntəqəsinin – Böyük Mərcanlı, Karxulu, Sarıcallı və Maşanlı kəndlərinin, həmçinin Zəngilan rayonunda Mincivan qəsəbəsinin təməlini qoyub.

Prezidentə yenidən qurulacaq yaşayış məntəqələrinin baş planları və görüləcək işlər barədə məlumat verilib.

Bildirilib ki, Böyük Mərcanlı kəndi Araz vadisində, Cəbrayıl şəhərindən 22 kilometr məsafədə yerləşir. Cəbrayıl rayonunun ən böyük kəndidir. Baş plana əsasən, kəndin ümumi sahəsi 362 hektar təşkil edir. 2040-cı ilədək 6230 nəfər əhali üçün 1074 fərdi ev və bir neçə mərtəbəli yaşayış binaları layihələndirilib. 2026-cı ilədək dövrü əhatə edən “Böyük Qayıdışa dair I Dövlət Proqramı”na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi 41 hektardır. Bu mərhələdə Böyük Mərcanlıya 542 nəfərin köçürülməsi üçün 149 fərdi ev tikiləcək.

davamı səh. 2-də

## Qarabağ məktəbinin “Dəryanur” xalçası Latviya muzeyini bəzəyəcək

Mayın 21-də Azərbaycan Milli Xalça Muzeyində Latviyanın Yanis Akuraters Muzeyi üçün toxunan Qarabağ qrupuna aid “Dəryanur” xalçasının təqdimatı keçirilib.



Tədbirdə Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova, Latviya Parlamentinin sədri Daiga Mierina, Latviyanın Xatirə Muzeyləri Birliyinin direktoru Rita Meinerte, Yanis Akuraters Muzeyinin direktoru Maira Valtere çıxış ediblər.

2023-cü ildə Azərbaycan Milli Xalça Muzeyi və Xatirə Muzeyləri Birliyi arasında imzalanmış müqaviləyə əsasən həyata keçirilən birgə layihənin iki ölkə arasında mədəni əlaqələrə töhfə olduğu bildirilib. Diqqətə çatdırılıb ki, Yanis Akuraters Muzeyində qorunan ağ-qara arxiv fotosunda əksini tapan xalça azərbaycanlı və xarici ekspertlər tərəfindən təhlil edilib, onun Qarabağ qrupuna aid “Dəryanur” xalçası olması, materialı, rəngləri və ölçüsü müəyyənləşdirilib. Vaxtilə Yanis Akuratersin evində yer alan həmin sənət nümunəsi Azərbaycan Milli Xalça Muzeyinin Ənənəvi texnologiya şöbəsində yenidən toxunub.

Sonra qonaqların iştirakı ilə “Dəryanur” xalçasının hanadan kəsimi mərasimi keçirilib, bu sənət nümunəsinin ərsəyə gəlməsində əməyi olanlara təşəkkürnamə təqdim olunub.

Layihənin rəhbəri Əməkdar mədəniyyət işçisi Şirin Məlikovadır.

# “Tacik xalqı Azərbaycan mədəniyyətini həmişə yüksək dəyərləndirib”

### Ölkəmizdə Tacikistan Mədəniyyəti Günləri

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 19–23 may tarixlərində ölkəmizdə Tacikistan Mədəniyyəti Günləri keçirilir.



Mayın 20-də Heydər Əliyev Mərkəzində Tacikistan Mədəniyyəti Günlərinin təntənəli açılış mərasimi olub.

Tədbirdə rəsmilər, iki ölkənin mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri və digər şəxslər iştirak ediblər.

Əvvəlcə qonaqlar Heydər Əliyev Mərkəzində nümayiş etdirilən Tacikistan rəssamlarının rəsm əsərləri, xalq sənətkarlıq nümunələri və milli geyimlərindən ibarət sərgi ilə tanış olublar.

Açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli dost ölkədən gəlmiş qonaqları və tədbir iştirakçılarını salamlayıb. Ölkəmizdə Tacikistan Mədəniyyəti Günlərinin sənətsevərlər üçün əlamətdar hadisə olduğunu deyən nazir bildirib ki, tarixi qədimlərə gedən Azərbaycan-Tacikistan əlaqələri dövlət başçılarımızın dostluğu və müntəzəm qarşılıqlı səfərləri ilə ildən-ilə genişlənir: “Bu dostluq münasibəti mədəni əlaqələrin də inkişafına öz töhfəsini verir. Görkəmli mədəniyyət xadimlərinə həsr olunan layihələr, həmçinin kitab dövriyyəsi, ədəbiyyat mübadiləsi həyata keçirilir. Tacikistanda dünyaşöhrətli Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvini çox sevirlər. Dahi şairin əsərləri tədris proqramlarına daxil edilir. Görkəmli Azərbaycan heykəltaraşları Fuad Əbdürrəhmanov, Ömər Eldarov və digərlərinin əl işlərini Tacikistanın paytaxtı Düşənbə şəhərində görmək mümkündür. Bu gün UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısında Azərbaycan və Tacikistanın birgə təqdimatı ilə nominasiya faylları yer alır. Bu da bəzi mədəni sərvətlərimizin müştərək qorunması deməkdir”.

davamı səh. 2-də

## Bakıda “Türk dünyası” II Beynəlxalq Tələbə Tamaşaları Festivalı keçirilir

Teatr sənəti sahəsində təhsil alan, hədəfi təkcə ölkə miqyasına deyil, dünya səhnələrinə də çıxmaq olan ümidverici gənclər növbəti layihədə bir araya gəliblər. Sözsüz ki, ilk olaraq Türk dünyasının sənət ocaqlarında təhsil alan həmyaşıdları ilə birgə.



20-22 may tarixlərində Bakıda “Türk dünyası” II Beynəlxalq Tələbə Tamaşaları Festivalı keçirilir. TÜRKSOY, Elm və Təhsil Nazirliyi və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşən festivalda beş ölkə – Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstan təmsil olunur.

Qardaş ölkələrdən mədəniyyət və incəsənət profilli ali təhsil ocaqlarının rektorları, müəllimləri, eləcə də aktyor sənəti ixtisası üzrə təhsil alan tələbələrindən ibarət nümayəndə heyətlərinin iştirakı ilə sənət bayramı çərçivəsində ilk tədbirlər ADMİU-nun ev sahibliyində baş tutdu.

ADMİU-nun rektoru professor Ceyran Mahmudova qonaqları salamlayaraq “Türk dünyası” Beynəlxalq Tələbə Tamaşaları Festivalının rəhbərlik etdiyi universitetdə keçirilməsindən qürur duyduğunu dedi, bu məsuliyyətli vəzifəni onlara həvalə etdiyi üçün TÜRKSOY-un baş katibi Sultan Raevə təşəkkürünü bildirdi. Vurğuladı ki, bu kimi tədbirlər qardaş ölkələr arasında uzunmüddətli mədəni əlaqələrin, təhsil sahəsində əməkdaşlığın inkişafının bariz nümunəsidir.

TÜRKSOY-un baş katibi Sultan Raev festival münasibətilə hər kəsi təbrik edərək iştirakçılara uğurlar arzuladı, yaradıcılıq sahələrində təhsil alan istedadlı gənclərə inamını ifadə etdi.

Festival proqramına uyğun olaraq qonaqlar ADMİU təmsilçilərinin ifasında S.Şendilin “Qanlı Nigar” tamaşasına baxdılar.

Sonra festival iştirakçıları ADMİU-nun müəllimi, “dOM Teatrı”nın rəhbəri, rejissor Tərlan Rəsulovun təqdimatında “İnteraktiv teatr” mövzusunda seminara qatıldılar.

davamı səh. 3-də

## Beynəlxalq Muzeylər Günü nə ilə yadda qaldı?



Beynəlxalq Muzeylər Günü (18 may) bu il də ölkəmizdə müxtəlif tədbirlərlə yadda qaldı. Beynəlxalq Muzeylər Şurasının (ICOM) təşəbbüsü ilə 47 il öncə – 1977-ci ildə təsis edilən əlamətdar gün hər il müxtəlif devizlər altında qeyd olunur. Bu ilin mövzusu “Muzeylərdə təhsil və tədqiqat” adlanırdı.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə bu il də Beynəlxalq Muzeylər Günündə muzeylərdə “açıq qapı” elan olundu. Əlamətdar günlə bağlı paytaxtda və bölgələrdə fəaliyyət göstərən muzeylərdə müxtəlif tədbirlər keçirildi.

Azərbaycan Milli İncəsənət Muzeyində “Muzeydə kino” layihəsi üzrə şairə Xurşidbanu Natəvanın Ağdamda və Şuşadakı heykəllərinin tarixçəsindən bəhs edən film (Azərbaycan və ingilis dillərində) nümayiş olunub.

Muzeydə həmçinin 1920–1980-ci illər Azərbaycan rəngkarlığı və qrafikası haqqında mühazirə, “Gizli və aşkar” sərgisi çərçivəsində inklüziv ustad dərsi, “Uşaqlar üçün incəsənət tarixi” və “Kamin ətrafında hekayətlər” adlı layihələr həyata keçirilib. “Açıq qapı” günündə muzeyin ümumilikdə 4735 ziyarətçisi olub.

davamı səh. 3-də

## Bir ailə, üç rəssam, bir sərgi



Azərbaycan Rəssamlar İttifaqının (ARİ) Vəcihə Səmədova adına sərgi salonu bu günlərdə maraqlı ekspozisiyanı sənətsevərlərə təqdim etdi. Əməkdar rəssam Odtəkin Ağababayevin, həyat yoldaşı Valentina Ağababayeva və qızları Tatyana Ağababayevanın əsərləri bir sərgidə yer almışdı.

Mayın 14-də açılışı keçirilən sərgi Odtəkin Ağababayevin 95 illik və Tatyana Ağababayevanın 70 illik yubileyləri münasibətilə təşkil edilib.

ARİ-nin sədri Xalq rəssamı Fərhad Xəlilov, Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova, Xalq rəssamı Aydın Rəcəbov və başqaları çıxış edərək məşhur Ağababayevlər nəslini təmsil edən rəssamların yaradıcılığı, ayrı-ayrı əsərlərinin özünəməxsus cəhətləri barədə danışdılar.

Bildirildi ki, sərgidə müxtəlif mövzu və janrlarda yaradılan əsərlər nümayiş olunur. Odtəkin Ağababayevin özünəməxsus texnikası xüsusilə diqqəti çəkir. O, rəngin yumşaq çalarlarından ustalıqla istifadə edir, ona görə də əsərlərinin hamısı işıqlıdır.

davamı səh. 5-də



### Mingəçevir teatrı Zaqatala və Balakəndə qastrolda olub

səh. 4



### Regional xor müsabiqəsinin qala-konserti

səh. 4



### Gənc bəstəkarların plenumu başa çatıb

səh. 5

# Son görüşümüz tarixi bir görüş idi

“Xalqlarımıza və dünyaya açıq mesaj idi ki, biz dostuq, qardaşıq, bundan sonra da birlikdə olacağıq”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub. Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin mayın 19-da helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar başsağlığı verib.

İranın ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Seyid Cəfər Ağayi dövlətimizin başçısını qarşılayıb.

Azərbaycan Prezidenti matəm kitabına ürək sözlərini yazıb.

Sonra səfirliyin müvəqqəti işlər vəkili ilə söhbət edən Prezident İlham Əliyev deyib:

– İran İslam Respublikasının Prezidenti cənab Seyid İbrahim Rəisinin faciəli şəkildə həlak olması bizim hamımızı dərindən sarsıtdı. Onunla bərabər xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan və digər şəxslər faciəli şəkildə həlak olublar. Allah onlara rəhmət eləsin. İran xalqının başı sağ olsun. Bu, böyük itkidir. Bu itki təkcə İran xalqına, dövlətinə üz verməyib, bütün müsəlman aləminə üz verib.

Seyid İbrahim Rəisi böyük dövlət xadimi idi, görkəmli siyasətçi və İran xalqının etibarını qazanmış böyük şəxsiyyət idi. Onunla çoxsaylı görüşlərim hər zaman məndə çox böyük təəssürat izi buraxırdı. Onunla son görüşüm isə tarixi bir görüş idi. Həm o, həm də mən bu görüşü məhz tarixi görüş adlandırmışdıq. Dövlət sərhədində böyük infrastruktur layihəsinin açılışında birgə iştirakımız İran-Azərbaycan əlaqələrinin nə qədər möhkəm olmasından xəbər verirdi, həm xalqlarımıza, həm bütün dünyaya çox açıq mesaj idi ki, biz dostuq, qardaşıq, biz bundan sonra da birlikdə olacağıq. Açılış mərasimindən sonra həm mərhum Prezident Rəisinin, həm də mənim rəsmi açıqlamalarımız çox ciddi siyasi məna daşıyırdı. Hər iki Prezident açıq bəyan etmişdi ki, bu bölgənin gələcək inkişafında bölgədə yerləşən ölkələr fəal iştirak etməlidirlər.

Faciənin baş verməsi, əlbəttə ki, böyük dərddir, həm onun yaxınlarına, həm onu tanıyanlara. Amma təsəlli verən odur ki, o öz həyatını İran xalqının inkişafına həsr etmişdir. İran dövlətinin milli maraqlarının müdafiə edilməsində onun xüsusi rolu var idi. Həm Prezident vəzifəsində çalışdığı zaman, həm ondan əvvəlki dövrlərdə o, İran xalqının rifahını yaxşılaşdırmağa çalışırdı və milli maraqların müdafiəsində onun böyük rolu olmuşdur.

### “Əldə edilmiş bütün razılaşmalar, əminəm ki, icra ediləcək”

Bildiyiniz kimi, faciədən əvvəl biz iki saatdan çox birlikdə idik. Bir saatdan çox davam edən ikitərəfli görüş əsnasında bir çox önəmli məsələlər müzakirə edilmişdir. İran-Azərbaycan əlaqələrinin inkişafının gələcək istiqamətləri bir daha təsdiqlənmişdir və hər iki tərəfin güclü siyasi iradəsi bir daha nümayiş etdirilmişdir. Bununla bərabər, biz konkret infrastruktur layihələri haqqında geniş fikir mübadiləsi aparmışdıq, önəmli qərarlar qəbul edilmişdir. O görüşdə iştirak edən şəxslər bunu, əminəm ki, İranın yeni rəhbərliyinə çatdıracaqlar. Əldə edilmiş bütün razılaşmalar, əminəm ki, icra ediləcək. Çünki bu, İran və Azərbaycan xalqlarının iradəsinə söykənir və biz mərhum Prezident Rəisi ilə söhbət əsnasında qəti iradəmizi bildirdik ki, bundan sonra böyük layihələrin sayı çox olacaq, həm ikitərəfli, həm çoxtərəfli formatda.

Əfsuslar olsun ki, gələcək layihələrin icrasını görmək ona nəsib olmadı. Tale ilə hər kəs barışmalıdır. Ancaq yenə də deyirəm, təsəlli verən amil odur ki, öz həyatını İranın inkişafına qurban vermişdir və bizim yaddaşımızda, İran xalqının, Azərbaycan xalqının yaddaşında o, parlaq şəxsiyyət, böyük dövlət xadimi, Azərbaycan dövlətinin və xalqının böyük dostu kimi qalacaq. Bir daha başınız sağ olsun. Allah rəhmət eləsin.

***

Seyid Cəfər Ağayi səfirliyə gələrək başsağlığı verdiyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Xatırladaq ki, mayın 19-da Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olub.

Prezidentlərin iştirakı ilə Araz çayı üzərində inşa edilmiş “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız qalası” hidroqovşağının açılış mərasimi keçirilib.

Qeyd edək ki, 1,6 milyard kubmetr su tutumu olan “Xudafərin” və 56,7 milyon kubmetr su tutumuna malik “Qız qalası” hidroqovşaqları hər iki ölkə üçün böyük əhəmiyyətə malikdir.

Azərbaycan tərəfi üçün qoyuluş gücü 100 MVt olan “Xudafərin” və 40 MVt olan “Qız qalası” su elektrik stansiyaları və hidroqovşaqlarının istismara verilməsi nəticəsində illik 358 milyon kilovat-saat elektrik enerjisi istehsalı, mövcud 252 min hektar torpaq sahəsi üzrə suvarmanın yaxşılaşdırılması və 12 min hektar yeni əkin sahələrinin suvarılması təmin ediləcək.

# Prezident Cəbrayılda dörd kəndin, Zəngilanda Mincivan qəsəbəsinin təməlini qoyub

*əvvəli səh. 1-də*

Cəbrayıl rayonunun Karxulu kəndi şimaldan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu, cənubdan və cənub-şərqdən Horadiz-Ağbənd dəmir yolu xətti ilə əhatə olunub. 2040-cı ilədək kəndin layihələndirilən ərazisi 313 hektar təşkil edir və bu müddət ərzində kənddə 4428 sakin üçün 940 fərdi ev və bir neçə mərtəbəli bloklu evlərin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulur. 2026-cı ilədək dövrü əhatə edən mərhələdə 691 sakin üçün 145 fərdi ev tikilməlidir.

Rayonun Sarıcallı kəndi şimaldan yeni salınan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu, şimal-şərqdən Şükürbəyli kəndi, cənubdan və cənub-şərqdən Horadiz-Ağbənd dəmir yolu xətti, cənub-qərbdən və qərbdən Soltanlı kəndi ilə əhatə olunub. Baş planda kəndin ümumi sahəsi 330 hektar təşkil edir. 2040-cı ilədək 4740 nəfər əhali üçün 1185 fərdi evin və bir neçə mərtəbəli bloklu binanın layihələndirilməsi nəzərdə tutulur. 2026-cı ilədək dövrü əhatə edən birinci mərhələdə layihələndirilən ərazinin sahəsi isə 104 hektardır. Bu mərhələdə kəndə 1016 sakinin köçürülməsi üçün 242 fərdi ev inşa olunacaq.

Maşanlı kəndinin 2040-cı ilədək layihələndirilən ərazisi 157,54 hektar olacaq. Həmin müddətdə kənddə 2360 sakin üçün 590 fərdi evin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulub. “Böyük Qayıdışa dair I Dövlət Proqramı”na əsasən, 2026-cı ilədək məskunlaşacaq əhalinin yaşayış yükü nəzərə alınaraq, birinci mərhələ üçün 50 hektar yer ayrılıb. Bu mərhələdə 944 sakin üçün 236 fərdi ev tikiləcək.

Zəngilan rayonunun Mincivan qəsəbəsi rayon mərkəzindən 13,2 kilometr cənub-şərq istiqamətində, Araz çayının sahilində respublika əhəmiyyətli Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd yolu və Horadiz-Ağbənd dəmir yolu xətti üzərində yerləşir. Qəsəbənin sahəsi 301,51 hektar olacaq. 2040-cı ilədək qəsəbədə 9088 nəfər üçün 630 ev və bir neçə mərtəbəli yaşayış binalarının tikilməsi nəzərdə tutulub. Birinci mərhələ üçün layihələndirilən ərazinin sahəsi 153,4 hektardır. Bu mərhələdə Mincivan qəsəbəsinə 3146 nəfərin köçürülməsi üçün 628 ev və 92 mənzildən ibarət bir neçə mərtəbəli dörd yaşayış binasının tikintisi planlaşdırılır.

Xatırladaq ki, bundan öncə Cəbrayıl rayonunda beş yaşayış məntəqəsinin – Cəbrayıl şəhəri, Xudafərin qəsəbəsi, Şükürbəyli, Horovlu və Soltanlı kəndlərinin yenidən salınması başlanıb. Zəngilan rayonunun yenidən salınan Ağalı kəndi ilk sakinlərini 2022-ci ildə qəbul edib. Həmçinin Zəngilan şəhərinin, rayonun Alıbəyli, Zəngilan, Cahangirbəyli kəndlərinin inşası başlanıb.

***

Qeyd edək ki, Prezident İlham Əliyev mayın 18-də Zəngilan rayonunda “AzərEnerji”nin “Zəngilan” və “Şayıflı” su elektrik stansiyalarının açılışlarını edib.

Bundan əlavə, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunun Ağalı kəndində “Ağalı” hotelinin açılışında iştirak ediblər.

## Xalqlarımızı ortaq mədəni dəyərlər birləşdirir



Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 19–23 may tarixlərində ölkəmizdə Tacikistan Mədəniyyəti Günləri keçirilir. Bu münasibətlə Tacikistan Respublikasının mədəniyyət naziri xanım Matlubaxon Sattoriyenin rəhbərlik etdiyi geniş nümayəndə heyəti Azərbaycana səfərə gəlib.

Mayın 21-də Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli tacikistanlı həmkarı ilə görüşüb.

Qonağı salamlayan nazir ölkəmizdə Tacikistan Mədəniyyəti Günlərinin keçirilməsini əlamətdar hadisə kimi səciyyələndirib. Qeyd olunub ki, iki ölkə arasında mədəni-ədəbi əlaqələrin qədim tarixi var. Hazırda dövlət başçılarımız arasında olan dostluq münasibətləri, yüksək səviyyəli qarşılıqlı səfərlər bütün sahələrdə, o cümlədən mədəniyyət sahəsində əməkdaşlığı daha da möhkəmləndirib.

Adil Kərimli 1-3 may tarixlərində Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Tacikistan nümayəndə heyətinin aktiv iştirakına görə həmkarına minnətdarlığını bildirib. Nazir ICESCO-nun Azərbaycanda regional nümayəndəliyinin açılması ilə bağlı hazırlıq işləri barədə də qonaqlara məlumat verib.

Mədəniyyət günlərinin yüksək səviyyədə təşkilinə və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən Tacikistanın mədəniyyət naziri Matlubaxon Sattoriyen mədəniyyətin xalqlarımızı yaxınlaşdıran əsas amil olduğunu söyləyib, eyni zamanda iki ölkənin ortaq mədəni dəyərləri bölüşdüyünü diqqətə çatdırıb.

Söhbət zamanı Matlubaxon Sattoriyen iki ölkə arasında incəsənət təhsili sahəsində tələbə mübadiləsinin əhəmiyyətli olacağını qeyd edib. O, həmçinin gələn il Tacikistanda Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi təklifini səsləndirib. Xanım nazir azərbaycanlı həmkarını Tacikistana rəsmi səfərə dəvət edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# “Tacik xalqı Azərbaycan mədəniyyətini həmişə yüksək dəyərləndirib”

Ölkəmizdə Tacikistan Mədəniyyəti Günləri

*əvvəli səh. 1-də*

Nazir bildirib ki, Tacikistan Mədəniyyəti Günləri paytaxt Bakı ilə yanaşı, Gəncə şəhərində də təşkil olunacaq. “Bu da daha geniş kütlənin Tacikistanın zəngin mədəniyyəti ilə tanış olmasına şərait yaradacaq. İnanıram ki, mədəniyyət günləri çərçivəsində təqdim olunacaq zəngin proqram mədəni əməkdaşlığımızın dərinləşməsinə və dostluq əlaqələrinin möhkəmlənməsinə xidmət edəcək”, – deyə nazir əlavə edib.

Səmimi qarşılanmaya və nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirən Tacikistan Respublikasının mədəniyyət naziri xanım Matlubaxon Sattoriyen iki ölkənin dövlət rəhbərlərinin dəstəyi və himayədarlığı ilə möhtəşəm bir mədəni mübadilənin şahidi olduqlarını deyib. Vurğulanıb ki, ölkələrimiz arasında diplomatik əlaqələrin əsası qoyulandan bütün sahələrdə eyni səviyyəli əməkdaşlıq həyata keçirilir: “Tacikistan və Azərbaycan son illərdə intensiv mədəni əməkdaşlıq edirlər. Mədəni mübadilənin dinamikası əlaqələrin yüksək səviyyədə inkişafının göstəricisidir. Mədəni əlaqələrimizin dərin kökləri var. Tacikistanda böyük Nizaminin “Xəmsə”si hər zaman aktualdır. Tacik xalqı Azərbaycanın mədəniyyətini və incəsənətini həmişə yüksək dəyərləndirib. Yüzilliklər ərzində Azərbaycan xalqı öz zəngin mədəniyyətini yaradıb və qoruya bilib. Mədəniyyət günləri xalqlarımızın mədəni mübadiləsinə xidmət edir və əlaqələrimizin inkişafına dəyərli töhfə verir”.











Çıxışlardan sonra qonaq ölkənin incəsənət ustalarının qala-konserti təqdim olunub.

Konsertdə Tacikistan Xalq artistləri Mirəli Dostizoda, Rüstəm Dulloyev, Raxmatullo Hoşimov, Əməkdar artistlər Sitorai Karomatullo, Davlat Nəzriyev, Güləsal Pulodova, Məhəmmədrafi Karomatullo, Fotimai Məşrabın, Fəxriddini Malikin, Nigina Amonkulova, Haknazar Alovatov, eləcə də Qaffar Vəlamatzadə adına Dövlət Əməkdar Rəqs Ansamblı, “Lola”, “Zebo” və “Parastu”, “Gülrez”, “Cahonoro”, “Bazmoro” rəqs ansamblları və başqaları çıxış ediblər.

Proqramda “Sevdiyim diyar” (sözlər – Gülruxsora, musiqi – Xalq artisti Mirəli Dostizoda), “Bu gözəl gözlər” (Məhəmmədsobir Abduazim, Xalq hafizi İsmayıl Nəzriyev), “Tacikistan, Azərbaycan” (Nizom Kosim, Firuz Rəcəbov), “Sevgim” (Nurullohi Orif və İslam Qulomi, Şoxin Abdullo), “Dostluğun nuru” (Hafiz Şirazi, Əmir Xosrov Dəhləvi və Fəxriddini İroki, Xalq artisti Raxmatullo Hoşimov) və digər mahnılar ifa olunub.

Tacikistan sənətçilərinin təqdim etdiyi musiqi və rəqs nömrələri böyük maraq və alqışlarla qarşılanıb.

Konsert proqramında Azərbaycan musiqilərinə də yer ayrılıb. Tacik ifaçıların səsləndirdiyi “Ayrılıq olmayaydı” və “Sevgili canan” mahnıları böyük coşqu ilə alqışlanıb.

Ölkəmizdə Tacikistan Mədəniyyəti Günləri mayın 23-də başa çatacaq.

**Nurəddin**

## Avtomatlaşdırılmış kitabxana sistemi ilə bağlı treninq davam edir

Milli Kitabxanada Mədəniyyət Nazirliyi idarələrinin tabeliyində olan mərkəzləşdirilmiş kitabxana sistemlərinin (MKS) mütəxəssisləri üçün KOHA Avtomatlaşdırılmış Kitabxana-İdarəetmə Sisteminin tətbiqi ilə əlaqədar treninqlər keçirilir.

15–18 tarixlərində keçirilən treninqə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyindəki MKS mütəxəssisləri cəlb olunublar.

Tədbirdə Milli Kitabxananın direktoru Kərim Tahirov və Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli çıxış ediblər.

Diqqətə çatdırılıb ki, Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın birgə layihəsi olan KOHA proqramı dünyanın 70-dən çox ölkəsində tətbiq olunur. KOHA proqramının şəhər və rayon kitabxanalarında tətbiqi Milli Kitabxananın zəngin fondundan istifadə etmə imkanı verərək oxuculara xidməti operativləşdirmək, asanlaşdırmaq və kifayət qədər sürətləndirmək imkanı yaradacaq.

Mayın 20-də Milli Kitabxanada KOHA proqramı üzrə növbəti qrup üçün treninq başlanıb. Treninqdə Mədəniyyət Nazirliyinin Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Sumqayıt şəhər, Abşeron, Xızı rayon MKS-lər və Şərqi Zəngəzur Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan MKS-lərin mütəxəssisləri iştirak edirlər. Treninq mayın 23-dək davam edəcək.

# Bakıda “Türk dünyası” II Beynəlxalq Tələbə Tamaşaları Festivalı keçirilir

əvvəli səh. 1-də

Həmin gün festivala həsr olunmuş mətbuat konfransı da keçirildi.

TÜRKSOY-un baş katibi Sultan Raev, ADMİU-nun rektoru Ceyran Mahmudova, Ankara Musiqi və İncəsənət Universitetinin rektoru Erhan Özden, Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutunun rektoru Eldor Şermanov, T.Jurgenov adına Qazaxıstan Milli İncəsənət Akademiyasının rektoru Arman Judebaev, Qırğız Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Tumonboy Koldoşovun iştirak etdiyi konfransda ölkələrarası təhsil, sənət sahəsində əməkdaşlıq, tələbə mübadiləsi, müştərək layihələr ətrafında söhbət açıldı.





Sultan Raev ilki Özbəkistanda keçirilən festivalın əhəmiyyətini vurğuladı, 30 illik zəngin yol keçən TÜRKSOY-un bu kimi ideyaları daim dəstəklədiyini bildirdi. Qeyd etdi ki, TÜRKSOY əlaqələrin intensiv hal alması üçün yaradıcılıq istiqamətlərində təhsil verən müəssisələrin və onların sayəsində dünya mədəniyyətinə inteqrasiyanı hədəfləyən gənclərin daha da tanınması, ən azı öz həmyaşıdları, gələcək həmkarları ilə təmasına çalışır.

Baş katib bu məramla ötən il Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyənin mədəniyyət və incəsənət profilli beş ali təhsil ocağının iştirakı ilə yaradılan Türk Dünyası Sənət Universitetləri Birliyindən də söz açdı.

Gələcək üçün fərqli istiqamətlərdə planları olan və onların realizəsinə məhz bu festivalla daha tez nail oluncağını deyən S.Raev rektorların mayın sonuna planlaşdırılan ikinci görüşündə bir sıra önəmli qərarların alınacağını da bildirdi.

Rektor Ceyran Mahmudova ADMİU-da həyata keçirdikləri önəmli tədbirlərdən və layihələrdən bəhs etdi, bu festivalın universitet üçün böyük əhəmiyyət kəsb etdiyini vurğuladı. Rektor həmçinin tələbələrin ilk sınaq, özünü nümayiş meydanı olan festivalın münsiflər heyətində Türk dünyasının nüfuzlu sənət xadimlərinin təmsil olunduqlarını diqqətə çatdırdı.

Xatırladaq ki, festivalın münsiflər heyətinə Əməkdar incəsənət xadimi, sənətşünaslıq elmləri doktoru, professor İsrafil İsrafilov (sədr), sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor, teatr tənqidçisi Meruyert Jaksılıkova (Qazaxıstan), Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutu Musiqili teatr sənəti kafedrasının müdiri dosent Şerzod Muhammadiyev (Özbəkistan), Xalq yazıçısı, rejissor, teatr tənqidçisi Janış Kulmanbetov (Qırğızıstan) və rejissor, aktyor, pedaqoq Murat Atak (Türkiyə) daxildir.

***

Mayın 20-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında festivalın təntənəli açılış mərasimi keçirildi.

Mədəniyyət, Elm və Təhsil nazirlikləri, AMEA, elm və təhsil ocaqlarının rəhbər şəxslərinin, mədəniyyət və incəsənət xadimlərinin iştirak etdiyi mərasimdə öncə TÜRKSOY-un 30 illik tarixinə qısa videoçarxla nəzər salındı. Türkdilli ölkələrin mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilatın bu müddətdə böyük işlərə imza atdığı vurğulandı.

Festivalın işinə uğurlar arzulayan TÜRKSOY-un baş katibi Sultan Raev dedi ki, təşkilat gənclərlə bağlı layihələri daim dəstəkləyir. O, qədim və zəngin türk mədəniyyəti və irsinin dünya miqyasında daha da tanınması işində istedadlı gənclərə inamını ifadə edərək festivalın da bu mərama xidmət etdiyini bildirdi.

ADMİU-nun rektoru Ceyran Mahmudova bu festival ideyasını dəstəkləyən və realizəsinə şərait yaradan qurumlara təşəkkür etdi.

Çıxışların ardınca festivalın bədii proqramı təqdim olundu.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhminin ssenari müəllifi, Əməkdar artist Nicat Kazımovun rejissoru olduğu proqramda türk ulusunun keçdiyi böyük tarixə sərkərdələrin, dövlət qurucularının bədii obrazlarında nəzər salındı, incəsənətin ayrı-ayrı istiqamətlərinin zövqlü çələngi təqdim olundu.

Tamaşaçılar ADMİU-nun xalq çalğı alətləri orkestri (bədii rəhbər və dirijor Mustafa Aşurov), tələbə xoru (bədii rəhbər və dirijor Təranə Yusifova), universitetin müəllim və tələbələri, müxtəlif illərdə məzun olmuş tanınmış aktyorlar, habelə Bakı Xoreoqrafiya Akademiyasının tələbə və şagirdlərindən ibarət rəqs kollektivlərinin iştirakı ilə Türk dünyasının seçkin musiqi və rəqs nümunələrini izlədilər.

***

Festivalın tamaşalarına gəlincə, qardaş ölkədən tələbələrin səhnə işləri Akademik Rus Dram və Milli Gənc Tamaşaçılar teatrlarında nümayiş olunur.

Mayın 22-də Dövlət Milli Gənc Tamaşaçılar Teatrında festivalın rəsmi bağlanış və mükafatlandırma mərasimi keçiriləcək.

**Həmidə Nizamiqızı**

# Azərbaycan və Tacikistanın kino xadimləri arasında həmişə sıx münasibətlər olub

Mayın 19-dan 23-dək ölkəmizdə Tacikistan Mədəniyyəti Günləri keçirilir. Mayın 20-də mədəniyyət günləri çərçivəsində Nizami Kino Mərkəzində Tacik kinosu günlərinin açılış mərasimi olub.




Tamaşaçılar ilk olaraq Azərbaycan-Tacikistan dostluğunu nümayiş etdirən videoçarxı izləyiblər. Videoçarxda Prezident İlham Əliyevin Tacikistana səfərindən fraqmentlər də yer alıb.

Azərbaycan Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev çıxış edərək Tacikistandan gələn qonaqları və tədbir iştirakçılarını salamlayıb. Deyib ki, dost respublikalarımız coğrafi baxımdan uzaq olsa da, uzun illər ərzində iki ölkə çox yaxın əməkdaşlıq edib. Eyni zamanda kinematoqraflarımız arasında həmişə sıx münasibətlər olub. Ötən əsrin 60-cı illərinin əvvəlində görkəmli Azərbaycan bəstəkarları Tofiq Quliyev və Arif Məlikov bir sıra tacik filmlərinə musiqilər yazıblar. Azərbaycan aktyorları Fərhad Yusifov, Bəşir Səfəroğlu, Rasim Balayev, Tariyel Qasımov və Həmidə Ömərova dost ölkənin bir neçə ekran əsərində rol alıblar.

Görkəmli tacik aktyoru Haşim Qadoyev “Dədə Qorqud” və “Məlikməmməd” filmlərində çəkilib, Komil Yormatov dəfələrlə Azərbaycan səhnələrində çıxış edib. “Azərbaycanda bu gün keçirilən Tacikistan Mədəniyyəti Günləri kinematoqraflarımız arasında münasibətlərin inkişafına öz töhfəsini verəcək”, – deyə C.Quliyev bildirib.

“Tacikfilm”in baş direktoru Mahmadsaid Şoxiyon qeyd edib ki, müstəqillik illərində iki ölkə arasında diplomatik münasibətlər dinamik inkişaf edib və bu gün qardaş xalqlarımızın xeyrinə mühüm nəticələr əldə olunub. Tacikistan Prezidenti Emoməli Rəhmon və Azərbaycan Prezidenti İlham Əliyev arasındakı möhkəm və etibarlı təmaslar buna böyük töhfə verib.

Tacikistan Kinematoqrafçılar İttifaqının sədri Səfər Hakdodov bildirib ki, Tacikistan-Azərbaycan əlaqələri mədəniyyətin müxtəlif sahələri, eləcə də ədəbiyyat üzrə tarixi köklərə bağlıdır: “Əminəm ki, iki ölkə arasında əməkdaşlıq bundan sonra da inkişaf edəcək. İki qardaş ölkə arasında əməkdaşlığın mədəniyyət günləri çərçivəsində davam etməsi sevindirici haldır”.

Sonra Tacikistan tərəfindən Azərbaycan Dövlət Film Fondunun direktoru Cəmil Quliyevə xatirə hədiyyəsi, Xalq artisti Tariyel Qasımova isə “Tacikistan kinosunun əlaçısı” medalı təqdim olunub.

Daha sonra “Tacikfilm”in istehsalı olan “Rüstəm və Sohrab” filmi nümayiş etdirilib. Boris Kimyaqarovun filmində rollardan birini Tarıyel Qasımov oynayır. Filmin bəstəkarı görkəmli Azərbaycan bəstəkarı Arif Məlikov, dirijoru Niyazidir.

Əbülqasım Firdovsinin “Şahnamə” əsərinin motivləri əsasında 1971-ci ildə lentə alınan filmin süjeti cəngavər Rüstəmin qəhrəmanlığı və şücaəti, gözəl Təhminəyə olan sevgisi, Rüstəmin oğlu ilə çoxdan gözlənilən görüşü, habelə xəbis və məkrli Kavus şahın xəyanəti haqqında əfsanələrə əsaslanır.

Mayın 21-də Nizami Kino Mərkəzində kinosevərlər “Şöhrətlənən Sarəzm” sənədli filmini izləyiblər. Mayın 22-də isə “Tale” (“Fortuna”) bədii filmi göstəriləcək. Mədəniyyət günlərinin sonuncu günü – mayın 23-də Nizami Kino Mərkəzində (saat 16:00) Tacik kinosu günlərinin bağlanışı və “Güzgü” bədii filminin nümayişi olacaq.

**Lalə Azəri**

# Xalq artisti Roza Cəlilova yubileyi münasibətilə evində ziyarət edilib



Azərbaycan rəqs sənətinin inkişafında özünəməxsus yeri olan Xalq artisti Roza Cəlilovanın mayın 17-də 95 yaşı tamam olub.

Mayın 18-də mədəniyyət naziri Adil Kərimli və nazirliyin məsul əməkdaşları yubilyar sənətkarı evində ziyarət ediblər.

Roza Cəlilovanı yubileyi münasibətilə təbrik edən nazir sənətkara möhkəm cansağlığı və fərəhli ömür arzulayıb.

Qeyd olunub ki, Xalq artistinin Azərbaycan rəqs sənətinin inkişafına verdiyi töhfələr Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib. O, respublikanın ali təltiflərinə və Prezidentin fərdi təqaüdünə layiq görülüb.

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə sənətkara nazirliyin Fəxri diplomu təqdim edilib.

Xalq artisti deyib ki, Ulu öndər Heydər Əliyev mədəniyyətimizin bütün sahələri kimi, rəqs sənətinə də diqqət və qayğı göstərib. Sənətkar mədəniyyətimizin böyük himayədarı ilə bağlı xatirələrini bölüşüb.

Qeyd edək ki, Roza Cəlilova 1929-cu ildə Qubada anadan olub. 1947-ci ildə Bakı Xoreoqrafiya Məktəbini bitirib. İki il Opera və Balet Teatrının balet truppasında çalışıb. 1949-cu ildə Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblında fəaliyyətini davam etdirib. 1965-1975-ci illərdə ansamblın rəqs qrupuna rəhbərlik edib. Uzun illər xoreoqraf kimi də fəaliyyət göstərib. 1989-cu ildə yaratdığı “Gülüstan” mahnı və rəqs ansamblı müxtəlif ölkələrdə çıxış edib.

# Beynəlxalq Muzeylər Günü nə ilə yadda qaldı?

əvvəli səh. 1-də

Azərbaycan Milli Xalça Muzeyini həmin gün 4981 nəfər ziyarət edib. Onlar üçün Azərbaycan dilində ödənişsiz ekskursiyalar təşkil olunub.

Muzeydə dahi şair Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş “Sənətdə bənzərsiz eşq” sərgisi açılıb. Sərgidə Xalq rəssamları Lətif Kərimov, Eldar Mikayılzadə, Aydın Rəcəbov, sənətşünaslıq üzrə elmlər namizədi Cəfər Müciri və rəssam Gülmurad Bəbirovun dahi şairə həsr olunan xalçaları nümayiş etdirilir. Ekspozisiyada həmçinin Xalq rəssamı Kamil Əliyevə aid “Füzuli” xalçasının eskizi, Rafiq Qəmbərovun “Füzuli” dekorativ pannosu, həmçinin ilk dəfə olaraq görkəmli sənətkar Lətif Kərimovun Füzuliyə dair kitablara verdiyi bədii tərtibatlardan elementlər yer alır. Xalça Muzeyinin kolleksiyasından olan nümunələrin sərgisi mayın 30-dək davam edəcək.

Muzeyin balaca dostları üçün isə Uşaq şöbəsinin əməkdaşları tərəfindən hazırlanan “Leyli və Məcnun” kölgə teatr tamaşasının premyerası, ustad dərsləri keçirilib.

***

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyini “açıq qapı” aksiyası zamanı 1500 nəfərə yaxın şəxs ziyarət edib.

Muzeyin Xaqani Şirvani adına Aran regional filialında “açıq qapı” günündə şəhid ailələri, hərbçilər, rayon ictimaiyyətinin nümayəndələri muzeyin zəngin ekspozisiya ilə tanış olublar.





***

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində “Muzeydən təhsilə” adlı tədbir keçirilib. Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbi şagirdlərinin iştirak etdiyi tədbirdə muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Alla Bayramova açılış nitqi söyləyib. Muzeyin və onun bütün filiallarının fəaliyyəti, ali və ümumtəhsil müəssisələri ilə əməkdaşlıq haqqında məlumat verilib.

Sonra Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının, Azərbaycan Milli Konservatoriyası nəzdində Respublika İncəsənət Gimnaziyasının tələbə və şagirdlərinin ifalarında muzey əməkdaşlarının elmi araşdırmaları nəticəsində aşkara çıxarılıb redaktə və nəşr etdirdiyi əsərlərdən ibarət konsert proqramı təqdim olunub.

Muzeyin Qədim musiqi alətləri ansamblı da konsert proqramı ilə çıxış edib. Eyni zamanda xüsusi internat məktəbinin musiqi qabiliyyətli şagirdləri ansamblın müşayiəti ilə öz məharətlərini göstəriblər.

***

Milli Azərbaycan Tarixi Muzeyində “Muzey eksponatları şagirdlərin rəngli dünyasında” layihəsi çərçivəsində mayın 16-da “Naxçıvanın maddi mədəni irsi muzey arxeologiyası və etnoqrafiyası müstəvisində” adlı sərgi-tədbir keçirilib. 5 nömrəli Uşaq-gənclər inkişaf mərkəzi şagirdlərinin muzey eksponatları əsasında çəkdikləri rəsm əsərlərindən ibarət sərgi təşkil edilib.

Mayın 17-də muzeydə “Breynrinq” intellektual yarışması keçirilib. Muzeylə bərabər, bir sıra qurumların təmsil olunduğu yarışmada 8 komanda öz biliyini nümayiş etdirib. Qaliblər mükafatlandırılıb.

Bundan başqa, muzey Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən “Bir muzeyin sirri” adlı layihədə iştirak edib.





Beynəlxalq Muzeylər Günü münasibətilə təşkil olunan “açıq qapı” aksiyasında muzeyi 2050 nəfər ziyarət edib.

***

Mayın 18-də Azərbaycan İstiqlal Muzeyində konsert proqramı təşkil olunub. Uşaq İnkişaf Mərkəzi nəzdində fəaliyyət göstərən “İnklüziv Art Studio”nun uşaqları çıxış edib, çəkdikləri rəsmlər sərgilənib.

Ziyarətçilərə eksponatlar haqqında ətraflı məlumat verilib. “Açıq qapı” günündə muzeyi 2200 nəfər ziyarət edib.

***

Əlamətdar gün və “Yaşıl dünya naminə həmrəylik ili” münasibətilə Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi mayın 18-də “Təbiəti duyaraq sev!” adlı tədbir keçirib.

Muzeyin və 1 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə ekoloji problemlər ətrafında söhbət aparılıb. Mərkəzin təsviri sənət qalereyasının dərnək üzvləri təbiətə qayğı mövzusunda rəsmlər çəkiblər.

***

Bülbülün Memorial Muzeyində keçirilən tədbirdə muzeyin direktoru Fərqanə Cabbarova əlamətdar günün tarixi haqqında məlumat verib, həmkarlarını və muzeysevərləri bayram münasibətilə təbrik edib.

Tədbirdə Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbinin şagirdləri Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı ilə çıxış ediblər.

***

Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyində “Muzeydə istedadını kəşf et və təcrübə qazan” adlı ustad dərsləri təşkil edilib. Mütəxəssislər tərəfindən gənclərə bəstəkarlıq, aktyorluq və “Oyun dizayneri” (“Game designer”) üzrə dərslər keçilib.

“Açıq qapı” günündə muzeyi çoxsaylı yerli vətəndaşlar və xarici qonaqlar ziyarət ediblər. Muzey əməkdaşları tərəfindən qonaqlara Azərbaycan, rus və ingilis dillərində ekskursiyalar keçirilib. Muzeydə gün boyu klassik musiqilər səsləndirilib.

**Nurəddin**

# Qara Qarayevin yaradıcılığına həsr olunan musiqi axşamı

Azərbaycan Milli Konservatoriyasının nəzdində fəaliyyət göstərən Sumqayıt Musiqi Kollecinin fortepiano sinfi mayın 15-də Beynəlxalq Muğam Mərkəzində konsert proqramı ilə çıxış edib. Konsert böyük bəstəkar Qara Qarayevin yaradıcılığına həsr olunub.



Kollecin "Vio Cello" kamera orkestrinin müşayəti ilə (bədii rəhbər Könül Bəkirova) tələbələrin çıxışları Qara Qarayev dühasının təntənəsini bir daha nümayiş etdirib. Orkestrə Əməkdar müəllim Firəngiz Xəlilova dirijorluq edib.

İfalar zamanı monitorda videoçarx şəklində dahi bəstəkarın həyat və yaradıcılığı, əsərlərinin təqdim olunduğu arxiv videomaterialları tamaşaçılara dolğun təəssürat bəxş edib.

Qeyd edək ki, konsert layihəsinin rəhbəri sənətşünaslıq üzrə fəlsəfə doktoru Səbinə Mehdiyeva və fortepiano fənn birləşmə komissiyasının sədri Təranə Əliyevadır.

**Lalə**

# "Gəncləşən muğam"ın növbəti konserti

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında "Gəncləşən muğam" layihəsinin növbəti konserti təqdim edilib. Tədbirdə rəsmilər, mədəniyyət və incəsənət xadimləri, şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Konsertdə layihənin rəhbəri Xalq artisti Mənsum İbrahimov, Əməkdar artist Təyyar Bayramov, gənc xanəndələr Elsevər Muradov, Ülviyyə Sədaqət, Pərvaz İbrahimli, Fatimə Hüseynova, Elgiz Əliyev, Ayşən Mediyeva, Valid Abdullayev, Sədəf Budaqova, Xəyal Hüseynov, Xəyalə Qafarzadə, Günay İmamverdiyeva, Nurlan Namazov, Mirəli Sarızadə və Ülkər Abdullayeva çıxış ediblər.

Gecədə "Mənim Azərbaycanım", "Şuşanın dağları", "Küçələrə su səpmişəm", "Qal, sənə qurban", "Axtararsınız", "Sarıbülbül", "Xudayar təsnifi", "Qarabağ", "Yaşa, mənim xalqım!" mahnıları səsləndirilib.

# Bədii qiraət ustasının yubileyi keçirilib

Mərkəzi Aran RMİ-nin təşkilatçılığı ilə Ucar rayon Heydər Əliyev Mərkəzində Əməkdar artist, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, bədii qiraət ustası Ağalar Bayramovun 70 illik yubileyi münasibətilə ədəbi-bədii gecə keçirilib.



Mayın 17-də təşkil olunan tədbirdə əvvəlcə qiraət ustasının həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş etdirilib.

RMİ-nin rəisi Aydın Bəşirov Əməkdar artistin yaradıcılığı haqqında fikirlərini bölüşüb, yubileyi münasibətilə ona ən xoş arzularını çatdırıb.

Çıxış edənlər Ağalar Bayramovun bədii qiraətçi və pedaqoji fəaliyyətindən danışıblar.

Tədbir boyunca qiraət ustası tanınmış şairlərin şeirlərini səsləndirib. İncəsənət ustalarının ifalarında musiqilər təqdim olunub.

Sonda Mərkəzi Aran RMİ və Ucar Rayon İcra Hakimiyyəti tərəfindən Əməkdar artistə yubileyi münasibətilə fəxri fərmanlar təqdim edilib. Ağdaş rayon Mədəniyyət Mərkəzinin rəssamı Məlahət İsmayıl tərəfindən çəkilən rəsm əsəri yubilyara hədiyyə olunub.

# Naxçıvanda yubilyar rəssamın sərgisi

Naxçıvan Muxtar Respublikası (NMR) Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına sərgi salonunda Əməkdar rəssam Həmzə Sadiqovun 75 illik yubileyi münasibətilə "Rənglərin harmoniyası" adlı fərdi yaradıcılıq sərgisi açılıb.



Mayın 17-də keçirilən tədbirdə NMR Rəssamlar Birliyinin sədri, millət vəkili Ülviyyə Həmzəyeva rəssamın həyat və yaradıcılığından bəhs edib, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafanın və komitə üzvlərinin təbriklərini çatdırıb.

Muxtar respublika Ali Məclisinin sədr müavini Anar İbrahimov deyib ki, Həmzə Sadiqov təkcə yaradıcılığı ilə deyil, çalışdığı vəzifələrdə də hər zaman Vətənə bağlılığını sübut edib. O, ötən əsrin 90-cı illərində Ulu öndər Heydər Əliyevin müstəqilliyimizin möhkəmləndirilməsi uğrunda apardığı mübarizədə yer alıb, eyni zamanda torpaqlarımızın müdafiəsində fədakarlıq göstərib.

Yubilyara NMR Rəssamlar Birliyinin təşəkkürnaməsi təqdim olunub.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, Xalq rəssamı Hüseynqulu Əliyev və başqaları sənətkarın yaradıcılığından söz açıb, təbriklərini çatdırıblar.

Həmzə Sadiqov əməyinə göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Sonra müəllifin 60-a yaxın əsərinin yer aldığı sərgiyə baxış olub.

# Muzeylər tarixlə ünsiyyət məkanıdır

Bölgələrdə 18 may – Beynəlxalq Muzeylər Günü münasibətilə müxtəlif səpkili tədbirlər keçirilib.





Şirvan şəhər Mədəniyyət Mərkəzi və "Pir Hüseyn Xanəgahı" Tarix-Memarlıq Qoruğunun birgə təşkilatçılığı ilə keçirilən tədbirdə əlamətdar günün yaranması haqqında məlumat verilib, kompozisiyalar təqdim edilib.

Şirvan Tarix-Diyarşünaslıq Muzeyində Vətən müharibəsi qazisi Rəsul İsmayılovun dekorativ işlərindən ibarət fərdi sərgisi keçirilib. Sərgidən sonra qonaqlar muzeyin ekspozisiyası ilə tanış olublar.

Neftçala Tarix-Diyarşünaslıq Muzeyi Xanoğlan Məmmədov adına Neftçala rayon Mədəniyyət Mərkəzinin foyesində tədbir və sərgi təşkil edib.

Əlamətdar günlə bağlı Hacıqabul rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə müxtəlif başlıqlı sərgilər izlənilib, kompozisiyalar və musiqi nömrələri təqdim olunub.

***





Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS Mərkəzi Kitabxanasının əməkdaşları və bir qrup oxucu Quba Tarix-Diyarşünaslıq Muzeyində ekskursiyada olublar. Muzey bələdçisi muzeyin fəaliyyəti haqqında məlumat verib, zəngin tariximizi əks etdirən eksponatlar haqqında danışıb.

Siyəzən rayon Heydər Əliyev Mərkəzində "Muzey ünsiyyət yaradır" adlı tədbir keçirilib. Çıxışlarda vurğulanıb ki, ölkəmizdə muzey işinin inkişafı Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider tərəfindən bu sahədə müəyyən edilmiş prioritetlər Prezident İlham Əliyevin rəhbərliyində uğurla davam etdirilir.

***

Dağlıq Şirvan RMİ və Basqal Dövlət Tarix-Mədəniyyət Qoruğunun birgə təşkilatçılığı ilə İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində Beynəlxalq Muzeylər Günü münasibətilə tədbir keçirilib. Tədbirdə qoruq tərəfindən Basqal kəlağayıları, xalçalar, Basqal qəsəbəsinə aid kulinariya, mədəni irs nümunələri və ağacoyma sənəti nümunələri nümayiş etdirilib. Rayon Mədəniyyət Mərkəzinin "Niyal" instrumental ansamblının konserti alqışlarla qarşılanıb.

***

Beynəlxalq Muzeylər Günü ilə əlaqədar Şəki-Zaqatala RMİ-nin tabeliyində fəaliyyət göstərən müəssisələr tərəfindən ekskursiyalar və tədbirlər həyata keçirilib. Əlamətdar Günün tarixindən və əhəmiyyətindən söz açılıb.

***

Bərdə Tarix-Diyarşünaslıq Muzeyində "Dünənimizin, bu günümüzün və sabahımızın carçıları" adlı tədbir təşkil edilib. Çıxışlardan sonra Bərdə şəhər 1 nömrəli Uşaq incəsənət məktəbinin müəllimləri tərəfindən bədii proqram təqdim olunub.

***

Qazax-Tovuz RMİ-nin tabeliyində fəaliyyət göstərən muzeylərdə Beynəlxalq Muzeylər Günü münasibətilə "açıq qapı" elan olunub. Aksiya çərçivəsində məktəb kollektivlərinin, sakinlərin muzeylərə ekskursiyaları təşkil edilib. Ziyarətçilərə muzeylərin fəaliyyəti, rayonun və bölgənin tarixi haqqında ətraflı məlumat verilib.

Ağstafa rayon Heydər Əliyev Mərkəzində "Hər muzey bir abidədir" adlı tədbir keçirilib. Bildirilib ki, gənc nəslin muzeyləri ziyarət etməsi onların tarixi-mədəni irsimiz haqqında biliklərini artırır, milli dəyərlərə məhəbbət ruhunda formalaşmasına xidmət edir.

Şəmkir Tarix-Diyarşünaslıq Muzeyində keçirilən tədbirdə muzeyin direktoru Cavanşir Pirverdiyev məruzə ilə çıxış edib. Tədbirdə Şəmkir rayon Uşaq musiqi məktəbi və rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə ədəbi-bədii kompozisiya nümayiş olunub.

***

Əlamətdar günlə bağlı Lənkəran şəhər Heydər Əliyev Mərkəzində "açıq qapı" günü elan olunub. Lənkəran rayonunun bir sıra ümumtəhsil məktəblərinin şagirdləri, sakinlər və şəhərin qonaqları mərkəzdəki ekspozisiyalarla tanış olublar.

Masallı Tarix-Diyarşünaslıq Muzeyi, rayon Heydər Əliyev Mərkəzi və Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Muzeylər, təhsil və tədqiqat" devizi altında elmi-praktik konfrans keçirilib. "Muzeylər, təhsil və tədqiqat" mövzusunda çıxış edən muzeyşünaslar muzeylərin əhəmiyyətini vurğulayıblar.

Əlamətdar günlə bağlı Astara Tarix-Diyarşünaslıq Muzeyində keçirilən tədbirdə qeyd olunub ki, bu gün ölkəmizdə muzeylərin fəaliyyətinin canlandırılması, muzey şəbəkələrinin genişləndirilməsi sahəsində mühüm işlər həyata keçirilir.

**Hazırladı: N.Məmmədli**

# Regional xor müsabiqəsinin qala-konserti və mükafatlandırma mərasimi

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin dəstəyi, Mil-Muğan və Mərkəzi Aran RMİ-lərin birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Hər yanı gülşən Azərbaycan" adlı III Regional xor müsabiqəsi keçirilib.



Mayın 16-da Saatlı rayon Mədəniyyət Mərkəzində müsabiqənin qala-konserti və qaliblərin mükafatlandırılması mərasimi olub.

Tədbirdə Mərkəzi Aran RMİ-nin rəisi Aydın Bəşirov, Mil-Muğan RMİ-nin rəisi Faiq Xudanlı, müsabiqənin münsiflər heyətinin üzvləri, regionun idarə və təşkilatlarının rəhbərləri, mədəniyyət və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Faiq Xudanlı çıxış edərək qonaqları salamlayıb, müsabiqədə qalib olmuş xor kollektivlərinə təbriklərini çatdırıb.

Kürdəmir şəhər Uşaq incəsənət məktəbinin xor kollektivi Qran-pri mükafatı, Mingəçevir şəhər Üzeyir Hacıbəyli adına 1 nömrəli onbirillik Musiqi məktəbinin xor kollektivi I dərəcəli diplom, Ağdaş şəhər 1 nömrəli Uşaq musiqi məktəbinin xor kollektivi II dərəcəli diplom, Göyçay şəhər Arif Məmmədov adına Uşaq musiqi məktəbinin xor kollektivi III dərəcəli diplomla təltif edilib. Eyni zamanda Beyləqan şəhər Niyazi adına Uşaq musiqi məktəbinin və Mingəçevir şəhər Bülbül adına 2 nömrəli Uşaq musiqi məktəbinin xor kollektivi diploma layiq görülüblər.

Konsertdə qalib kollektivlərin, uşaq musiqi, incəsənət məktəbləri xalq çalğı alətləri ansambllarının ifasında maraqlı musiqi nömrələri, Saatlı rayon "Adıgün" türk xalq folklor kollektivinin ifasında rəqs nömrələri təqdim edilib.

Qeyd edək ki, müsabiqədə hər iki regional idarədən 16 uşaq musiqi və incəsənət məktəbinin xor kollektivləri iştirak edib. Kollektivlərin ifasını Azərbaycan Dövlət Xor Kapellasının bədii rəhbəri Xalq artisti Gülbacı İmanova, Azərbaycan Dövlət Uşaq Filarmoniyasının direktoru Əməkdar incəsənət xadimi Dilarə Əliyeva və Bakı Musiqi Akademiyasının dosenti, Əməkdar müəllim Aqil Qafulovdan ibarət münsiflər heyəti qiymətləndirib.

# Azər Zeynalov Gəncədə çıxış edib



F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında Xalq artisti Azər Zeynalovun "Gəncəyə gəlirəm" adlı solo konserti keçirilib.

Musiqili gecənin tamaşaçıları arasında dövlət və hökumət rəsmiləri, mədəniyyət və incəsənət xadimləri olub.

Sənətçi Emin Sabitoğlunun "Şükriyyə", "Gəncədən gəlirəm", Tofiq Quliyevin "Bəxtəvər oldum", "Azərbaycan", Rauf Hacıyevin "Leyla", Siyavuş Kəriminin "Ömrümün istəyi", "Sənsizləmişəm", Sevil Əliyevanın "Əziz anam" və s. mahnıları ifa edib.

Xalq artisti məlahətli ifası ilə tamaşaçıların könlünü oxşayıb.

# Mingəçevir teatrı Zaqatala və Balakəndə qastrolda olub

Mədəniyyət Nazirliyinin dəstəyi ilə teatrların ölkə ərazisində qastrol səfərləri davam edir. 18-19 may tarixlərində Mingəçevir Dövlət Dram Teatrının kollektivi iki səhnə əsəri ilə Zaqatala və Balakən rayonlarında qastrolda olub.



Kollektiv hər iki rayonun balaca tamaşaçıları üçün Abdulla Şaiqin "Tıqtıq xanım" əsəri əsasında rejissor İlqar Rəhimovun səhnələşdirdiyi kukla tamaşasını nümayiş etdirib. Bir neçə seans göstərilən tamaşaya uşaqlar maraqla baxıblar.

Bundan əlavə, yaradıcı heyət Zaqatala və Balakən rayonlarında yazıçı İsi Məlikzadənin "Subaylarınızdan görəsiniz" komediyası əsasında Xalq artisti Valeh Kərimovun quruluş verdiyi eyniadlı tamaşanı təqdim edib. Komik hadisələrin maraqlı mizanlarla təqdim olunduğu səhnə əsəri hər iki rayonun tamaşaçılarının alqışları ilə qarşılanıb.

# "Rənglərin harmoniyası" – gənc rəssamın sənət dünyası

Şirvan-Salyan RMİ və Biləsuvar Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə gənc rəssam Lalə Hüseynovanın "Rənglərin harmoniyası" adlı fərdi sərgisi açılıb.



Biləsuvar rayon Heydər Əliyev Mərkəzində gerçəkləşən sərgidə rayonun icra başçısı Faiq Qürbətov, Şirvan-Salyan RMİ-nin rəisi Şahin Şahbazov, Milli Xalça Muzeyi və Dövlət Rəssamlıq Akademiyasının nümayəndələri, mədəniyyət müəssisələrinin əməkdaşları, rəssamlar iştirak ediblər.

Çıxış edənlər Azərbaycan Rəssamlar İttifaqının üzvü, Dövlət Rəssamlıq Akademiyasının müəllimi Lalə Hüseynovanın rənglər dünyasından söhbət açıblar.

Lalə Hüseynova sərginin təşkilinə görə əməyi keçən hər kəsə təşəkkür edib. Sonra sərgiyə baxış olub.

Salyan rayon Mədəniyyət Mərkəzinin Əməkdar artist Həsənağa Sadıqov adına "Mahirlər" ailə xalq ansamblının ifasında musiqilər səsləndirilib.

# Mimçilər otuz yaşında

## Mədəniyyət Nazirliyində Pantomima teatrının kollektivi ilə görüş



Bu il Azərbaycan Dövlət Pantomima Teatrının fəaliyyətə başlamasının 30 illik yubileyidir.

Mayın 17-də Mədəniyyət Nazirliyində teatrın kollektivi ilə görüş keçirilib.

Mədəniyyət naziri Adil Kərimli yubiley münasibətilə teatrın kollektivinə təbriklərini çatdırıb, yaradıcılıq uğurları arzulayıb.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva tərəfindən ölkəmizdə mədəniyyət sahəsinin, o cümlədən teatr sənətinin inkişafına diqqət və qayğı göstərilir. Bu günlərdə Dövlət Gənc Tamaşaçılar Teatrına və Gəncə Dövlət Dram Teatrına "milli" statusunun verilməsi bunun daha bir təzahürüdür.

Bildirilib ki, Pantomima teatrının müasir Azərbaycan səhnə sənəti salnaməsində məxsusi yeri var. Yaradıcı kollektivin təqdim etdiyi yeni teatr estetikası təkcə ölkəmizdə deyil, eyni zamanda bir sıra ölkələrdə də maraq və rəğbətlə qarşılanır.

Pantomima teatrının da fəaliyyəti dövlət başçısı tərəfindən yüksək qiymətləndirilib, əməkdaşlar bir sıra dövlət təltiflərinə layiq görülüblər.

Teatrın bədii rəhbəri Xalq artisti Bəxtiyar Xanızadə çıxış edərək teatrın fəaliyyətinə verilən dəyərə görə minnətdarlığını bildirib. Deyib ki, kollektiv son aylarda 4 beynəlxalq festivalda iştirak edib. Dövlət dəstəyi olmadan bu qastrolları gerçəkləşdirmək mümkün deyil.

Xalq artistləri Hacı İsmayılov, Nurəddin Mehdixanlı, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə və başqaları çıxış edərək Pantomima teatrının kollektivini təbrik edib, yeni səhnə uğurları arzulayıblar.

Mimçiləri yubiley münasibətilə təbrik edən Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru Naidə İsmayılzadə, həmçinin rəhbəri olduğu sənət ocağına "milli" statusun verilməsinə görə ölkə rəhbərliyinə teatrın kollektivi adından minnətdarlığını bildirib. Qeyd edib ki, bu status həm də yaradıcı kollektiv üçün böyük məsuliyyət deməkdir.

Görüşdə yubiley münasibətilə teatrın kollektivinə Mədəniyyət Nazirliyinin Fəxri diplomu təqdim olunub. Sonra xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, Azərbaycan Dövlət Pantomima Teatrı 16 may 1994-cü ildə Mədəniyyət Nazirliyinin sərəncamı ilə "Dəli yığıncağı" Pantomima teatr-studiyası kimi yaranıb və Gənc Tamaşaçılar Teatrının nəzdində fəaliyyət göstərib. Teatrın əsası Xalq artisti Bəxtiyar Xanızadə tərəfindən qoyulub. 2000-ci ildə teatr-studiyaya "dövlət" statusu verilib.

Teatrın repertuarında Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin əsərləri ilə yanaşı, müasir müəlliflərin də yaradıcılıq nümunələri yer alır. Kollektiv qatıldığı çoxsaylı beynəlxalq festivallarda ölkəmizin teatr mədəniyyətini layiqincə təmsil edir.

# "Kinomuzu yaradanlar... Kinomuzu yaşadanlar"

## Həsən Məmmədov "Böyük dayaq"la anıldı





Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Kinomuzu yaradanlar... Kinomuzu yaşadanlar" layihəsi davam edir. Azərbaycan Respublikası Kino Agentliyi, Nizami Kino Mərkəzi, Azərbaycan Dövlət Film Fondu və Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının təşkilatçılığı ilə keçirilən layihənin məqsədi milli kino ənənələrinin təbliğidir.

Mayın 17-də Nizami Kino Mərkəzində keçirilən layihənin növbəti tədbiri görkəmli aktyor, Xalq artisti, Dövlət mükafatı laureatı Həsən Məmmədova (1938–2003) həsr olunmuşdu.

Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev unudulmaz sənətkarın Azərbaycan kino sənətinə bəxş etdiyi müxtəlif obrazlar haqqında danışdı. Bildirdi ki, əsl yaradıcılıq orijinal təqdimat, fərdilik tələb edir. Həsən Məmmədov da ekran obrazlarını bənzərsiz, məzmunlu çalarlarla, yüksək sənətkarlıqla təqdim edib. Onun çəkildiyi filmlər bu gün də maraqla baxılır. O, "Böyük dayaq", "Gün keçdi", "Arxadan vurulan zərbə", "İstintaq", "Dədə Qorqud", "Axırıncı aşırım", "Sevil", "Yeddi oğul istərəm", "Bir cənub şəhərində" və digər filmlərdə yaddaqalan obrazlar yaradıb: "O, kino sahəsinə "Böyük dayaq" filmində oynadığı Qaraş rolu ilə gəlmişdi. Bu debütdən sonra qarşıda bizi sevə-sevə izləyəcəyimiz neçə-neçə film gözləyirdi. Məlahətli səsə, səmimi çöhrəyə malik Həsən Məmmədovun yaratdığı obrazlara baxarkən hər dəfə yeni nələrsə kəşf edirik. Böyük sənətkarın daxili aləmində bir ağayanalıq, kübarlıq hiss olunurdu. O, bənzərsiz səsi ilə də milyonların qəlbini fəth etmişdi. Həsən Məmmədovun kinoda həyat verdiyi personajlar öz intellektual səviyyəsi, təbiətcə sakitliyi və təvazökarlığı ilə seçilir".

Cəmil Quliyev sonra "Böyük dayaq" filmi haqqında söz açdı. Dedi ki, 1962-ci ildə Həbib İsmayılovun rejissorluğu ilə, Mirzə İbrahimovun eyniadlı romanının motivləri əsasında çəkilən film Azərbaycan kinosunun dəyərli nümunələrindəndir. Filmdə Həsən Məmmədov, Ələsgər Ələkbərov, Tamilla Rüstəmova, Leyla Rzayeva və digər tanınmış aktyorlar rol alıb. Ekran işində o dövrün Azərbaycan kəndini bütün xarakterik əlamətləri ilə görürük. Bu həm ssenaristin və quruluşçu rejissorun, rəssamın və operatorun, eyni zamanda bəstəkarın və bütün aktyor ansamblının xidmətidir. Filmin ssenari müəllifi Mirzə İbrahimov, operatoru Xan Babayev, bəstəkarı Fikrət Əmirov, rəssamı Məmməd Hüseynov, geyim üzrə rəssamı Bədurə Əfqanlı, səs rejissoru Əziz Şeyxovdur.

Çıxışdan sonra "Böyük dayaq" bədii filmi nümayiş olundu.

**Lalə**

# "Dəyirmi masa"da bu dəfə layihənin koordinatoru yad olundu

Beynəlxalq Muğam Mərkəzində "Dəyirmi masa" layihəsi üzrə mayın 17-də növbəti təqdimat keçirildi.



Budəfəki təqdimat layihənin koordinatoru olmuş filologiya üzrə fəlsəfə doktoru, şair, tədqiqatçı, bu ilin 24 fevralında vəfat edən Gülhüseyn Kazımlının xatirəsinə həsr olunmuşdu. Tədbirdə müəllifin Azərbaycan muğamının tarixinə həsr olunan kitabları təqdim edilirdi.

Mərhumun ömür-gün yoldaşı Validə Kazımova çıxış edərək Gülhüseyn Kazımlının təşkilatçısı olduğu tədbirlərdən söz açdı. Qeyd etdi ki, Beynəlxalq Muğam Mərkəzi bu günə kimi "Dəyirmi masa" layihəsi çərçivəsində muğam sənətimizin və musiqinin müxtəlif janrlarını əhatə edən, milli musiqi alətlərimizin tarixi və problemlərinə həsr olunan elmi-praktik konfrans və müzakirələr keçirib. Həmçinin muğam ifaçılığında iz qoyan sənətkarlar anılıb, onların yaradıcılığına həsr edilən dəyirmi masalar təşkil olunub.

Azərbaycan Milli Konservatoriyasının (AMK) prorektoru professor Lalə Hüseynova, Xan Şuşinski Fondunun rəhbəri Bəyimxanım Cavanşirova-Verdiyeva, Xalq artisti Ənvər Sadıqov, AMK-nın "Səsin tədqiqi" elmi laboratoriyasının rəhbəri Aleksandriya Sultan fon Brüseldorff, tədqiqatçı alim Turan İbrahimov, yazıçı Kənan Hacı Gülhüseyn Kazımlının yaradıcılığı ilə bağlı fikirlərini və xatirələrini bölüşdülər.

Bildirildi ki, G.Kazımlı muğam sənətinin inkişafında xidmətləri olmuş görkəmli sənətkarların həyat və yaradıcılığı ilə bağlı tədqiqat aparıb. Ömrünün son illərini BMM-də muğam ustadları ilə bağlı tədbirləri böyük sevgi və peşəkar səviyyədə təşkil edirdi. O həm də BMM-in böyük maraqla izlənilən "Unudulmayanlar" layihəsinin də koordinatoru idi.

Tədbirdə BMM-in solisti, Əməkdar artist Sevinc Sarıyevanın ifaları da təqdim olundu.

# "Muğam mühazirələri"ndə "Şur"dan danışılıb

Beynəlxalq Muğam Mərkəzinin (BMM) "Muğam mühazirələri" layihəsinin növbəti konserti (17 may) "Şur" muğamına həsr olunub.



Konsertdən əvvəl BMM-in direktoru Əməkdar artist Sahib Paşazadə layihənin aparıcısı, tanınmış xanəndə, pedaqoq, Əməkdar incəsənət xadimi Aqil Məlikovu dövlət başçısının sərəncamı ilə Prezidentin fərdi təqaüdünə layiq görülməsi münasibətilə təbrik edib, yaradıcılıq uğurları arzulayıb. Xanəndə sənətinə göstərilən diqqətə görə dövlət başçısına və Heydər Əliyev Fonduna dərin təşəkkürünü bildirib.

Daha sonra muğam konserti şəklində təqdim olunan ədəbi-bədii gecədə "Şur" muğamı səslənib. Aqil Məlikovun bu muğamın xüsusiyyətləri, şöbələrdə qəzəllərin bölünməsi, rəng və təsniflər haqqında qənaətlərini xanəndə Elbrus Niftəliyev və "Muğam" televiziya müsabiqəsinin qalibləri Xətai Hacıyev və Vüqar Əbilovun ifaları əvəzləyib. Xanəndələr mühazirəni əyani şəkildə öz ifaları ilə tamaşaçılara nümayiş etdiriblər. Onları tarzən Rəşad İbrahimovun rəhbərliyi ilə instrumental heyət müşayiət edib.

Ədəbi-musiqili gecə tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

# Gənc bəstəkarların plenumu başa çatıb

Xəbər verdiyimiz kimi, 15–20 may tarixlərində Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) 90 illiyi ilə bağlı silsilə tədbirlər çərçivəsində "Gənc bəstəkarların plenumu" keçirilib.

ABİ-nin Ü.Hacıbəyli adına konsert salonunda plenumun açılış mərasimi olub. Tədbirdə mədəniyyət nazirinin müavini Murad Hüseynov, tanınmış musiqi xadimləri iştirak ediblər.

ABİ-nin sədri Xalq artisti, professor Firəngiz Əlizadə 2007-ci ildən etibarən gənc bəstəkarların yaradıcılığına həsr olunmuş doqquz plenumun keçirildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, dövlət tərəfindən gənc bəstəkarlara göstərilən qayğı (təqaüdlərin, mükafatların verilməsi), eyni zamanda Bəstəkarlar İttifaqının gənclərə diqqəti onların yaradıcı inkişafı üçün böyük əhəmiyyət daşıyır.

Firəngiz Əlizadə plenumun iştirakçılarına yeni uğurlar arzulayıb.

Sonra gənc bəstəkarların əsərləri ifa olunub. Plenumun ilk günü kamera musiqisinə həsr edilib.

İlahə Qismət-Abdullanın "Rəngli lövhələr" – fortepiano məcmuəsindən pyeslər, Sevinc Əliyeva-Qəmbərovanın "Payız gecəsində düşüncələr", Vəfa Bağırzadənin "Mərhəba", Fərid Fətullayevin "Ayüzlü nigarım" romansları, Tural Məmmədlinin "Ay işığında" piano üçün pyesi, Elvin Quliyevin skertso-vals (tar, kamança və piano üçün) və s. kamera-instrumental əsərləri səslənib.

Mayın 17-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (bədii rəhbər və baş dirijor Əməkdar artist Fuad İbrahimov) müşayiətində simfonik konsert keçirilib.

ABİ-nin sədri Firəngiz Əlizadənin təşəbbüsü ilə proqrama gənc bəstəkarların vətənpərvərlik mövzusunda irihəcmli əsərləri daxil edilib.




Tural Məmmədlinin "Şuşa fəthi", Vüqar Məmmədzadənin "İnsan", Elvin Quliyevin "Qayıdış", Eldar Babayevin "Gələcəyi düşünərkən" simfonik poemaları, İlahə Qismət-Abdullanın "Zəfər yolu", Fərid Fətullayevin "Dəsgah" simfonik orkestr üçün əsərləri səslənib.

Bu əsərlərin hər biri müxtəlif təfəkkürün məhsulu olsa da, onları bədii cəhətdən birləşdirən bir ideya var ki, bu da vətənpərvərlikdir. Təbii ki, gənc bəstəkarların belə bir mövzuya müraciət etməsinin başlıca səbəbi onların Vətənə məhəbbəti ilə yanaşı, 44 günlük Vətən müharibəsində xalqımızın əldə etdiyi şanlı Zəfərdir.

Bu əsərlərin səslənməsində dirijorun da əməyi qeyd olunmalıdır. Fuad İbrahimov hər bir əsərin bədii məzmununu dərindən duyaraq onu bəstəkarın düşündüyü tərzdə və öz interpretasiyası ilə təqdim edib.

Mayın 20-də plenumun nəticələri ilə bağlı ABİ-də dəyirmi masa təşkil edilib. Bəstəkar və musiqişünaslar əsası dahi Üzeyir Hacıbəyli tərəfindən qoyulan bu yaradıcılıq təşkilatının ənənələrinin yaşadılması və plenumun nəticələri barədə söhbət açıblar. Plenumun konsert proqramlarında təqdim olunan əsərlər barədə fikirlər səslənib.

# Bir ailə, üç rəssam, bir sərgi



əvvəli səh. 1-də

Tatyana Ağababayevanı da 70 illik yubileyi münasibətilə təbrik edən Fərhad Xəlilov onun ipək üzərində yaratdığı batikaların özəlliyini vurğuladı.

Sonra qonaqlar sərgi ilə tanış oldular.

Qeyd edək ki, bu, Ağababayevlərin ikinci ailə sərgisidir. İlk sərgi 2001-ci ildə gerçəkləşib. Budəfəki sərgini nəsillərin dialoqu da adlandırmaq olar.

Ağababayevlərin ikinci nəslindən Tatyana Ağababayeva ilə yanaşı, üç qardaşı da bu sənətlə məşğul olub. Hazırda oğul övladları ənənəni davam etdirirlər.

Əsərlər sərgi zalında elə yerləşdirilib ki, biz burada sənətlə bağlı fərqli yanaşmaların toqquşmasına şahid oluruq. Buna zamanın və cəmiyyətin inteqrasiyası da demək olar. Müxtəlif mövzulu rəngarəng əsərlərə baxdıqca nostalji duyğular, rənglər dünyasının sehri, ana yurdumuzun ecazkar mənzərələri, qadın xoşbəxtliyi və s. məqamların şahidi oluruq.

Sərgiyə gələnlər tərəfindən ömrünün 96-cı ilini yaşayan Odtəkin Ağababayevin dövrəyə alınması, səslənən təəssürat və təbriklər qocaman sənətkara sevgi və ehtiramın nümayişi idi. Tatyana xanım da çox həyəcanlı idi. Bu diqqət və sevgi əhatəsində o, sərgiyə qatılan və sərginin təşkilində əməyi olan hər kəsə təşəkkürünü ifadə edirdi.

Bildirək ki, rəssam O.Ağababayev 1928-ci ildə Bakıda doğulub. Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini (Böyükağa Mirzəzadənin kursu) və İ.V.Surikov adına Moskva Dövlət İncəsənət İnstitutunu bitirib. 2002-ci ildə "Əməkdar rəssam" fəxri adına, 2008-ci ildə Prezidentin fərdi təqaüdünə layiq görülüb. 2009 və 2014-cü illərdə fərdi sərgiləri keçirilib. Əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində və şəxsi kolleksiyalarda saxlanılır. Almaniya və Türkiyədə də fərdi sərgiləri keçirilən rəssamın əl işləri, həmçinin Rusiya, Gürcüstan, Çexiya, İran və Avstriyada nümayiş etdirilib.



Odtəkin Ağababayevin yaradıcılıq səfərləri zamanı kətana köçürdüyü Azərbaycanın təbiət mənzərələri, Qarabağ, Xocalı, Neft Daşları mövzularında rəsmlər, görkəmli şəxsiyyətlərin portretləri bu gün də aktualdır.

Həyat yoldaşı Valentina Ağababayevanın "Sarsılmaz dostluq", "Uşaqlara sülh lazımdır!", "İncəsənət əbədidir!" adlı plakat nümunələri sanki parlaq və sağlam gələcəyə işıq salır. Onun "Şəhərdə ağaclar", "Uşaqlar və it", "İki qadın", "Ailə" və s. müxtəlif mövzulu rəngkarlıq əsərləri də texnika baxımından diqqət çəkir.

1953-cü ildə anadan olan Tatyana Ağababayeva da Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil alıb. Sonra V.İ.Muxina adına Leninqrad Ali Rəssamlıq-Sənaye Məktəbində təhsilini davam etdirib. O daha çox batika (parça bəzəmək üsulu) ustası kimi tanınır. Ölkəmizdə bir neçə fərdi sərgisi keçirilib.

Əsərləri Azərbaycanla yanaşı, Rusiya və Almaniyada müxtəlif qalereyalarda, eləcə də 20-dən çox ölkədə şəxsi kolleksiyalarda saxlanılır. Vaxtilə Moskvada sərgilənən "Qız raketka ilə" və "Sübh tezdən" adlı ilk işləri Azərbaycan və SSRİ Mədəniyyət nazirlikləri tərəfindən alınıb. Rəssam Kuala-Lumpurda keçirilmiş beynəlxalq sərgi-konfransda Azərbaycanı uğurla təmsil edib. Bakıda 5 fərdi sərgisi keçirilib. Bu sərgidə də onun cazibədar batika işləri nümayiş olunur.

**L.Azəri**

Məmməd Cəfər – 115

# Elm tariximizdə məktəb yaratmış alim

Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında böyük əməyi olan alimlərimizdən biri də akademik Məmməd Cəfər Cəfərovdur. Görkəmli alim ömrünün 60 ilə yaxın bir dövrünü Azərbaycan ədəbi tənqidinin, mədəni-estetik fikrinin yeni yaradıcılıq keyfiyyətləri qazanmasına həsr edib. Eyni zamanda rus, Avropa və Şərq ədəbiyyatı tarixi ilə bağlı əhəmiyyətli tədqiqatlar aparıb. Bu il alimin anadan olmasının 115 illiyidir.

Məmməd Cəfər Zeynalabdin oğlu Cəfərov 9 may 1909-cu ildə Naxçıvan şəhərində dünyaya göz açıb. Erkən çağlardan valideynlərini itirir. Kiçik yaşlarından ağır zəhmətə qatlaşır. Dərzi yanında şagird kimi fəaliyyət göstərir, çörək sexində işləyir. Bütün bunlara baxmayaraq, həyat onun qarşısına yaxşı insanlar da çıxarır. Qonşuları Zəhra xanım ona ana əvəzi olur. Qış gecələrində balaca Məmmədə nağıllar danışır. Həmçinin papaqçı Qulamhüseyn Şərq nağılları, xüsusilə də klassik şairlər haqqında məlumat verir. Beləliklə, onda ədəbiyyata dərin maraq oyanır. Alim xatirələrində yazır:



"...Zəhra xaladan sonra kor Adıgözəllə papaqçı Qulamhüseyn mənim ədəbiyyat müəllimlərim idi...".

Məmməd Cəfər 1932-ci ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirir. Sonra indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat fakültəsində təhsilini davam etdirir. Tələbəlik dövründə eyni zamanda "Gənc işçi", "Maarif işçisi" qəzetlərində çalışır. Sonra həmin institutun Ərəb ədəbiyyatı kafedrasının aspiranturasında təhsil alır.

Araşdırmalarda qeyd olunur ki, fransız şairi Volterdən yazdığı diplom işinə görə onu Parisə göndərmək istəyirlər. Lakin 37-ci il hadisələri buna mane olur. O, uzun müddət dahi Azərbaycan şairləri Nizami Gəncəvi və Məhəmməd Füzuli haqqında tədqiqat əsərləri üzərində işləyir. 1941-ci ildə "Füzuli sevir" məqaləsini, 1959-cu ildə "Füzuli düşünür" monoqrafiyasını, 1960-cı ildə "Füzuli yaşayır" məqaləsini elmi ictimaiyyətə təqdim edən alim Füzulinin fəlsəfi dünyasını belə ifadə edir: "Füzuli sevir, Füzuli düşünür deməkdir. Aşiq Füzuli ilə mütəfəkkir Füzuli ancaq vəhdət halında alındığı zaman onu duymaq olur. Füzuli başqa cür dərk edilə bilməz... Biz Füzulinin böyük fikirlərini onun aşiqanə deyilmiş sözlərində axtarmalıyıq. Füzulinin aşiqanə sözləri, onun həkimanə sözləridir".

Görkəmli alim 1960-cı ildə yazdığı "Hüseyn Cavid" monoqrafiyası ilə cavidşünaslığın əsasını qoyur. 1963-cü ildə isə "Azərbaycan ədəbiyyatında romantizm" monoqrafiyasını yazır. Eyni zamanda "Rus ədəbiyyatı tarixi oçerkləri", "Rus klassikləri" və üçcildlik "XIX əsr rus ədəbiyyatı tarixi" adlı dərs vəsaitləri işıq üzü görür. "Estetik zövq haqqında", "Mütəfəkirin şəxsiyyəti", "Estetik tərbiyə, ailə və məktəb", "Həyatın romantikası", "Nizaminin fikir dünyası" kitabları isə elm və ədəbi aləmdə maraqla qarşılanır.

1947-ci ildə filologiya üzrə namizədlik, 1961-ci ildə isə doktorluq dissertasiyaları müdafiə edir. Professor elmi adını alır. 1967-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1976-cı ildə həqiqi üzvü seçilir.

Məmməd Cəfər sanballı tədqiqat əsərləri ilə yanaşı, fəal vətəndaş mövqeyi, milli düşüncəsi ilə də seçilib. Görkəmli dilçi alim, akademik Tofiq Hacıyev xatirələrində yazır: "1981-ci il idi. Akademiyada respublika səviyyəsində elmi seminar keçirildi. Məmməd Cəfərin ona xas olmayan əsəbi şəkildə bir alimə üz tutub dediyi sözlər hələ də yaddaşımdan silinməyib: "Bu nə fikirdir söyləyirsən? Azərbaycanlıların türkləşməsi nə deməkdir? Məgər ermənilərin ermənişləşməsi, gürcülərin gürcüləşməsi, rusların ruslaşması ifadəsi işlənir?" Əlbəttə, o dövrdə belə bir sərtliklə məsələni qabartmaq böyük cəsarət istəyirdi".

Xeyirxahlıq mücəssəməsi olan alim indiki Bakı Dövlət Universitetində dekan olarkən kasıb tələbələrə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda işlədiyi vaxtlarda isə gənc həmkarlarına maddi və mənəvi cəhətdən dəstək olub. Filologiya elmləri doktoru, professor Şamil Qurbanov bu barədə yazır: "Məmməd Cəfər müəllimin övladı yox idi. O bütün tələbələri övladı kimi sevirdi. Dekan olduğu vaxtlarda hamının qeydinə qalırdı. Müəllim kimi isə tayı-bərabəri yox idi".

Məmməd Cəfərin əsərləri keçmiş SSRİ xalqlarının, "Cəlil Məmmədquluzadə", "Mirzə Ələkbər Sabir" kitabları ingilis, fransız, ərəb, fars, ispan və türk dillərində nəşr olunub.

Əməyi yüksək qiymətləndirilən alim Dövlət mükafatı və "Əməkdar elm xadimi" fəxri adına, "Şərəf nişanı" ordeninə layiq görülüb.

Görkəmli elm xadimi, pedaqoq Məmməd Cəfər Cəfərov 11 may 1992-ci ildə Bakıda vəfat edib, Fəxri xiyabanda dəfn olunub.

**Savalan Fərəcov**



# Mədəni-ədəbi irsimizin Mümtazı

Bu il görkəmli ədəbiyyatşünas, şair, ədəbiyyat tariximizdə xidmətləri olmuş fədakar ziyalı Salman Mümtazın (1884–1941) anadan olmasının 140 illiyidir. Salman Mümtaz klassik ədiblərimizin əlyazmalarını toplayıb, zəngin bir irsin günümüzə gəlib çıxması üçün böyük zəhmətə qatlanıb. "Azərbaycan ədəbiyyatının qaynaqları" kitabını yazıb.

Mayın 15-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Salman Mümtaz ekspozisiyasının açılış mərasimi olub.

Muzeyin direktoru akademik Rafael Hüseynov tədbirdə çıxış edərək Salman Mümtazın milli ədəbiyyatımızın tanınmasında göstərdiyi xidmətlərdən danışıb. Qeyd edib ki, Salman Mümtaz ömrünü Azərbaycan klassik şairlərinin əsərlərinin, aşıq poeziyası və folklor nümunələrinin toplanmasına və nəşrinə sərf edib.

Alim bildirib ki, 1937-ci ilin qanlı repressiya burulğanı bu ziyalı insandan da yan keçmədi. Onu "Bakinskiy raboçi" qəzetində nəşr olunan məqalələrində buraxdığı "ideoloji səhvlərini" əsas göstərərək pantürkizm və millətçilikdə ittiham edirdilər. "Xalq düşməni" damğası vurulan Salman Mümtaz tutduğu vəzifələrdən azad edildi və Bakıdakı evində siyasi düşmən kimi həbs olunaraq, ağır işgəncələrə məruz qaldı. Həbs olunan zaman topladığı 270-ə yaxın əlyazma məhv edildi.

Salman Mümtaz 10 il müddətinə azadlıqdan məhrum edilərək Rusiyanın Oryol vilayətinə sürgün olundu və həmin bölgənin yaxınlığında Medvedski meşəsində güllələndi.

Rafael Hüseynov deyib: "Salman Mümtazın Əlyazmalar İnstitutundakı arxivini hələ 1970-ci illərin ortalarında, tələbəlik dövründə əvvəldən-sonadək araşdırmışdım. Onun şəxsi kitabxanasında olmuş, evinə gedib-gələn alimlərin, ədiblərin şəhadətinə əsasən tərtib edilmiş 258 addan ibarət siyahını da o vaxt ilk dəfə görmüşdüm".

Alim bildirib ki, Azərbaycanın repressiyaya məruz qalan şair və yazıçıları xalqımız tərəfindən ehtiramla yad edilir və ediləcək.

Tədbirdə tədqiqatçı-alim Şəlalə Hümbətova, S.Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivinin direktoru Könül Nəsibova Salman Mümtaz yaradıcılığı haqqında məlumat veriblər.

Salman Mümtazın nəvəsi şərqşünas-alim Urxun Qalabəyli babasının xatirəsinə göstərilən diqqətə görə minnətdarlığını bildirib.

***

Qeyd edək ki, görkəmli alimin 140 illiyi ilə bağlı Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası "Türk dünyasının Mümtaz oğlu" adlı biblioqrafik icmal və "Ədəbiyyatımızın Mümtazı" adlı videomaterial hazırlayıb.

Kitabxanadan bildirilib ki, materiallarda şairin gənclik illəri, ədəbiyyata gəlişi, "Molla Nəsrəddin" jurnalı, Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu və Azərbaycan Dövlət Muzeyində xidmətləri, Abbas Səhhət, Mirzə Ələkbər Sabir kimi Azərbaycan ədəbiyyatının görkəmli simaları ilə birgə fəaliyyəti haqqında məlumat verilir.

# Əməkdar artist, dirijor Faiq Sadıqov vəfat edib



Azərbaycan mədəniyyətinə itki üz verib. Əməkdar artist, Prezidentin fərdi təqaüdçüsü, uzun illər Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru olmuş Faiq Sadıqov 13 may 2024-cü il tarixində, 76 yaşında dünyasını dəyişib.

Faiq Əbülfəz oğlu Sadıqov 10 oktyabr 1948-ci ildə anadan olub. İlk musiqi təhsilini Gəncədə Qəmbər Hüseynli adına Musiqi məktəbinin tar sinfində alıb. Asəf Zeynallı adına Musiqi Texnikumundan məzun olduqdan sonra təhsilini Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) Xalq çalğı alətləri şöbəsində davam etdirib. Burada iki il oxuduqdan sonra dirijorluq sahəsini seçib, Əhəd İsrafilzadədən sənətin sirlərini öyrənib.

1979-cu ildən Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrində çalışıb. Bu kollektivlə Avropa və Azərbaycan bəstəkarlarının çoxsaylı əsərlərinin orkestrləşdirilməsinə nail olub.

Allah rəhmət eləsin.

# "Mən gedirəm" – şəhid məzun haqqında kitabın təqdimatı

Mingəçevir Turizm Kollecində bu təhsil ocağının məzunu, Vətən müharibəsinin kəşfiyyatçı şəhidi Fuad Xankişiyevin həyat və döyüş yolundan bəhs edən "Mən gedirəm" adlı kitabın təqdimatı keçirilib.

Tədbirdə şəhid anaları, qəhrəmanın döyüş və tələbə yoldaşları, kollecin müəllim və tələbələri iştirak ediblər.

Kollecin direktoru Kamal Əhmədov Fuad Xankişiyevin qısa ömründə qazandığı nailiyyətlərdən danışıb, xüsusilə çatdığı şəhidlik mərtəbəsinin ali və müqəddəs bir məqam olduğunu vurğulayıb.

Şəhidin anası Saqibət Xankişiyeva övladı ilə bağlı xatirələrini bölüşüb və kitabın necə ərsəyə gəlməsi haqqında məlumat verib.

Döyüş yoldaşları və müəllimləri Fuadın sağlığında necə qəhrəman ruhlu, Vətənini sevən gənc olmasından danışıblar.



Daha sonra tədbir iştirakçıları kollecin akt zalında Fuad Xankişiyev haqqında "Şərəfli yol" adlı qısa filmə baxıblar.

Fuad Şöhrət oğlu Xankişiyev 12 aprel 1996-cı ildə Mingəçevir şəhərində anadan olub. Mehdi Hüseynzadə adına 3 nömrəli tam orta məktəbdə təhsil alıb. Sonra Mingəçevir Turizm Kollecinin Bədən tərbiyəsi fakültəsində oxuyub. Təhsilini Respublika Olimpiya-İdman Liseyində davam etdirib. 2014–2016-cı illərdə əsgəri borcunu yerinə yetirib qayıtdıqdan sonra dizayn-dekor işləri ilə məşğul olub.

2020-ci ilin 44 günlük Vətən müharibəsi başlayanda kəşfiyyatçı kimi Füzuli, Xocavənd və Şuşa uğrunda döyüşlərdə qəhrəmanlıq göstərib. Noyabrın 3-də Şuşanın Daşaltı kəndi ərazisində şəhadət mərtəbəsinə yüksəlib. Noyabrın 5-də Mingəçevir Şəhidlər xiyabanında dəfn olunub.

Dövlət başçısının müvafiq sərəncamları ilə Fuad Xankişiyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

# Kitabların cazibəsini artıran rəssam

Təsviri incəsənətdə kitab qrafikasının özünəməxsus yeri var. Kitab tərtibatında müxtəlif illüstrasiyalar məzmunu zənginləşdirir, oxucu üçün maraq mənbəyinə səbəb olur. Kitaba çəkilən illüstrasiyalar, üz qabığı, ümumi tərtibat, kitabın məzmunu, ideyası ilə vəhdət təşkil edir, insanın şüuruna, qəlbinə yol tapır. Kitabın tərtibatında kompozisiyanın təşkili dekorativliyi, emosionallığı, cazibəliliyi, dövrün üslubuna uyğunluğu, əsərlərin psixoloji tərəfini əks etdirməklə yanaşı, kitabın bədii obrazını da yaradır.

Qrafik rəssam Azər Ələkbərov Azərbaycanda nəşr olunmuş bir çox uşaq ədəbiyyatına, həmçinin bədii ədəbiyyat və klassiklərin kitablarına illüstrasiyalar çəkmişdir. O, 22 may 1956-cı ildə Naxçıvanda ziyalı ailəsində dünyaya göz açmışdır. Doğulub boya-başa çatdığı qədim Naxçıvan torpağının əzəmətli qayaları, yaşıl ormanları, laləli dağları – bir sözlə, sirli-sehrli təbiətinin min bir rəngə çalan əsrarəngiz mənzərələri hələ uşaqlıqdan Azəri məftun etmişdi. Elə incəsənətə, rəssamlığa marağı da burdan qaynaqlanırdı.

Gördüklərini kətan üzərində əks etdirmək bacarığı Azər Ələkbərov, bir Tanrı lütfü idi. O, fərqli duyumu, məxsusi yanaşması ilə yaradıcılıq aləminə üz tutmuş, gördüklərini, görmək istədiklərini ağ vərəqə köçürməyə başlamış və bir-birindən maraqlı əsərlər yaratmağa nail olmuşdur. Rəssamlığa olan sonsuz məhəbbəti, bu sənətə vurğunluğu ilə orta məktəbi bitirdikdən sonra 1973-cü ildə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində təhsilini davam etdirməyə qərar vermiş, bu təhsil ocağını fərqlənmə diplomu ilə başa vurmuşdur. Məqsədi sevdiyi sahənin bütün incəliklərinə vaqif olmaq, ali təhsil almaq idi. Beləliklə, rəssam Ukraynanın Xarkov Dövlət Dizayn və İncəsənət Akademiyasının Dəzgah və kitab qrafikası fakültəsini də fərqlənmə diplomu ilə bitirmişdir.

Azər Ələkbərov vətənə döndükdən sonra yenicə yaranmış "Yazıçı" nəşriyyatında əmək fəaliyyətinə başlayır. Həmin illərdə görkəmli naşir, professional poliqrafçı Əjdər Xanbabayevin min bir əzabla, böyük həvəs və gələcəyinə tükənməz inamla yaratdığı "Yazıçı" nəşriyyatı fəaliyyətinin ən məhsuldar dövrünü yaşayırdı. 40 cildlik "Xalq ədəbiyyatı", 100 cildlik "Dünya ədəbiyyatı kitabxanası" silsiləsindən kitablar burda nəşr olunur və nəşriyyat iki ildən bir bu kitabları Moskvada keçirilən Beynəlxalq Kitab Yarmarkasında nümayiş etdirir, uğur qazanırdı. Azər nəşriyyatın məhz bu çağında gəlmiş və özü ilə yeni ab-hava gətirmişdi. Təkcə zahiri görkəmi ilə yox, həm də səmimiyyəti ilə, insanpərvərliyi, ünsiyyət qurmaq bacarığı ilə, ağlı, qabiliyyəti, yüksək zövqü və kitablara verdiyi tərtibatı ilə başqalarından seçilirdi. Onun H.K.Andersenin "Düyməcik", "Su pərisi"





nağıllarına, E.Hofmanın "Oyuncaq", V.Haufun "Yalançı şahzadə", Qrimm qardaşlarının "Ağ və Qırmızı gül" və s. nağıl əsərlərinə çəkdiyi qrafik illüstrasiyalara bigənə qalmaq mümkün deyil. İbrətamiz məsəllərlə, M.Ə.Sabir, A.Səhhət, C.Məmmədquluzadə, C.Cabbarlı kimi ustad sənətkarların əsərlərindən nümunələrlə dolu, şifahi və yazılı ədəbiyyatdan seçmələr əsasında tərtib olunmuş "Gəlinin cehiz kitabı"nın (1994) rəssamı və bədii redaktoru, gözəllik haqqında məlumatlarla dolğun "Gözəlliyin sirri" (2002) kitabının rəssamı olmuşdur. Azər Ələkbərov "Qanun" nəşriyyatının "Kamillik" seriyasından "Kamillik elmi" (2001) kitabına və bu qəbildən bir sıra nəşrlərə bədii tərtibat vermişdir.

Mütaliəni çox sevən, həm klassik, həm də müasir Azərbaycan ədəbiyyatına dərindən bələd olan rəssam çəkdiyi hər bir illüstrasiyanı əsərin məzmunu ilə uzlaşdırır, vəhdət təşkil etməsinə nail olur, ən cüzi bir çalarda əsərin məğzini tamaşaçıya çatdıra bilirdi. Çəkdiyi illüstrasiyalarla əsəri daha da oxunaqlı etməyi, oxucuda maraq oyatmağı bacarırdı.

Məşhur fransız rəssamı Delakrua deyirdi: "İstər mənzərə, qrafika, istərsə də heykəltəraşlıq olsun, hər bir incəsənət əsərinin ilk dəyəri gözləri sevindirməsidir". Bu sözləri bütünlükdə yaradıcılığında orijinal süjet və ifadə axtarışlarına xüsusi meyil edən, qara tuş, qələm vasitəsilə incə ştrixlərlə ifadəli rəsmlər ərsəyə gətirmiş rəssam-qrafik Azər Ələkbərovun yaradıcılığına da aid etmək olar.

Səməd Vurğunun, Nəriman Həsənzadənin şeirlər kitabı, Fikrət Qocanın, Ramiz Duyğunun əsərləri, Çingiz Abdullayevin "Müqəddəs olmaq arzusu", Sabir Rüstəmxanlının "Göy tanrı", Elmira Axundovanın "Yaşamaq anı", "Şüşə saray" (siyasi detektiv), "Bu bizik" kitablarına verdiyi tərtibat, çəkdiyi illüstrasiyalar öz işinin ustası olan rəssamın yüksək professionallıqla, böyük ustalıqla yaratdığı əsərlərdir.

Azər Ələkbərov işgüzarlığı, sənət inadkarlığı, zəhmətsevərliyi ilə öz yolunu müəyyənləşdirən rəssamlarımızdan idi. Sənətinə həddsiz dərəcədə bağlı olan rəssam təkcə rəsm əsərləri yaratmır, eyni zamanda sevib-seçdiyi sənətin sirlərini öyrənir və öyrədirdi. O, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Qrafika fakültəsində və İncəsənət Gimnaziyasında işləməklə yanaşı, "Gənclik", "Nurlar", "Yurd", "Əbilov, Zeynalov və oğulları" nəşriyyatları, "Qanun", "Gənclik", "Ulduz" jurnalları ilə də əməkdaşlıq edirdi. Həmin dövrdə onun "Mənim Abşeronum", "Doğma ellər", "Naxçıvan", "Xatirələr" kimi rəngli novella, nağıl, esse, detektiv və şeir kitablarına çəkdiyi çoxsaylı illüstrasiyaları dərc olunmuşdu.

Nəhayətsiz rənglər dünyasında gözəllik duyğularını fırçası ilə ifadə edən Azər Ələkbərov gördüklərindən heyrətlənən, çəkdikləri ilə heyrətləndirə bilən rəssam idi. O, sadəcə, maraq xətrinə deyil, yaratmaq və yaratdığına yaşamaq vəsiqəsi verə bilmək həvəsi ilə yaşayırdı. Rəssamın əsərləri təkcə respublikada deyil, yaxın və uzaq xaricdə də sərgilənir və hər yerdə özünün tamaşaçısını tapırdı.

Beynəlxalq eklibris sərgisində (2003) nümayiş etdirilən "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusuna həsr olunan əsəri rəssamın yaradıcılığında xüsusi yer tutur. "General Arif Heydərov" (2006), "Heydər Əliyev və Azərbaycan Ordusu" (2002), Sara Aşurbəylinin "Şirvanşahlar dövləti" (2006) və s. kitabların tərtibatı da onun yaradıcılıq nümunələrindəndir.

Mənalı və xatirələrdə xoş izlər buraxan bir ömür yaşamış Azər Ələkbərov uzun sürən xəstəlikdən sonra 4 avqust 2006-cı ildə əbədiyyətə qovuşmuşdur. O, yaradıcılığının ən bəhrəli çağlarında dünyasını dəyişsə də, yaratdığı əsərlərdə, tərtibatını verdiyi kitablarda, rəğbətini qazandığı dostlarının, hörmətini qazandığı tələbələrinin, sənətə dəyər verən insanların yaddaşlarında yaşayacaq.

**Könül Əzimova**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# "Obrazlarım, məni sevdirən qəhrəmanlarım daim yol yoldaşımdır"

## Hacı İsmayılov: "Aktyorların oynadığı rollar onların həyatlarına da təsir edir. Bunu özümdə də, başqalarında da görmüşəm"

Bu aktyoru həm də ona görə çox istəyirəm ki, şan-şöhrətin verdiyi üstünlüyü yoxdur. Ələlxüsus da yaş ötdükcə bəzi sənət xadimlərinə xas şöhrətpərəstlik həndəvərindən belə keçməyib. Sadə, sakit, həlimxasiyyətli. Sanki qarşımızdakı elə onun özü yox, məşhur qəhrəmanı Mustafa müəllimdir. Hətta mənə elə gəlir ki, daha çox Mustafa özü Hacı İsmayılovdur.



Beləliklə, həmsöhbətim teatrımızda daha çox ikincidərəcəli obrazlar oynamasına rəğmən öz planında ən yaxşı, milli kinomuzda hər birinin ayrıca yeri olan rollar ustası, Azərbaycan realist aktyor məktəbinin görkəmli nümayəndəsi, Xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli Hacı İsmayılovdur. 80 yaşı tamam olan sənətkar bir ilə yaxındır ki, həm də Azərbaycan Teatr Xadimləri İttifaqının sədr əvəzidir. Onunla söhbətimiz də elə burada baş tutdu.

*– Hacı müəllim, son vaxtlar sizi tapmaq çətinləşib. Sizin üçün necə, bu qədər işin öhdəsindən gəlmək çətin deyilmi?*

– Çətinləşib deyəndə ki, mən həmişə tapılıram. Sadəcə, teatrda məşqlər, ittifaqda tədbirlər, maşallah, bir az çoxdur. Həm də nə yaxşı ki, çoxdur. İşə gəldikdə, çətin deyil. Çünki 10 il sədr müavini olmuşam. Rəhmətlik Azərpaşa Nemətov məni dəvət etmişdi. Onun dövründə burada işlər görmüşük: müxtəlif tədbirlər, yubileylər, tamaşalar və s. Yəni bu iş də mənim üçün mühüm təcrübə oldu. Bu gün də, kollektiv, sağ olsun, əl-ələ verib çalışırıq. Yəni fəaliyyətimiz davam edir. Ötən ilin may ayından 10-a yaxın teatr kollektivini "Qonaq teatr" layihəsi çərçivəsində Bakıya dəvət etmişik. Bundan başqa, Türkiyədən – Antalya və Trabzondan iki kollektiv burada çıxış etdi ki, bu da ittifaq təcrübəsi üçün yeni idi. Sözsüz ki, bu layihələri də Mədəniyyət Nazirliyi ilə birgə reallaşdırırıq. Qısacası, iş qrafikimiz sıxdır və məncə, ötən müddətdə nəzərəçarpacaq işlərə nail olmuşuq.

*– ATXİ teatr xadimlərinin hüquqlarını tənzimləyən, yeni aktyorların da bir növ ata evi missiyasındadır. Bu mənada, ehtiyac duyulduqda ittifaq teatr təmsilçisinin hüququnu qoruya, ona qahmar çıxa bilirmi?*

– Bəli, dəstəyimiz həmişə var və olacaq da. Amma ittifaqın nizamnaməsində də qeyd olunub ki, ATXİ Azərbaycanda teatr sənətinin inkişafına, mövcud məsələlərin həllinə köməklik göstərən təşkilatdır. Həll edən, sözsüz ki, müvafiq olaraq Mədəniyyət Nazirliyidir. Biz bacardıqca kömək edirik. Elə bizim gördüyümüz işlərin hamısı teatr, teatr sənətinin ölkəmizdə inkişafı üçündür. Əsas məqsədimiz istedadlı gənclərin – aktyorların, rejissorların, dramaturqların cəlb olunmasıdır. Bildiyiniz kimi, bizdə dramaturgiya, rejissor, aktyor, eksperimental rejissura və menecment laboratoriyaları var. Artıq biz 4-cü ildir ki, həmin laboratoriyaların fəaliyyətini geniş ictimaiyyətə təqdim edirik. Onların festivalını təşkil edirik. Bir cəhətə sevinmək lazımdır ki, bu laboratoriyalara gələnlər, orada iştirak edənlər arasında peşəkarlarla yanaşı, peşəkar olmayan istedadlı gənclər də var. Onlar nə isə öyrənib, fəaliyyətlərinə bu yöndə davam edirlərsə, nə xoş.

*– Bir müddət öncə kino sahəsində iki ittifaqın birləşməsinə şahid olduq. Proses ümumən geniş rezonans doğurdu. Bu gün ATXİ-də də sədrliyə iddialılar çoxdur. Sizcə, ittifaq sədri kimlər ola bilər və niyə?*

– İnşallah, oktyabrda teatr xadimlərinin növbəti konfransı keçiriləcək və yeni sədr seçiləcək. Düz qeyd etdiniz ki, iddialılar çoxdur. Sadəcə, mən bir şeyi qeyd edim ki, uzun illər ittifaqa rəhbərlik etmiş Azərpaşa müəllimdən sonra bu iddiaya düşənlərin sayı daha da çoxaldı. Amma onlar bir şeyi unutmasınlar ki, bu ittifaqa rəhbərlik edənlər Azərbaycan mədəniyyətində tanınmış insanlar olublar. İndiyədək sədrlik edən 10 şəxsin hamısı Xalq artisti idi. Hamısı da aktyor və rejissorlar. Yeganə teatrşünas Mehdi Məmmədov idi. O da rejissor, aktyor, sonra teatrşünas olub. Yəni ittifaqa rəhbərlik etmək istəyənin nüfuzu olmalıdır, sözü keçməlidir. Elə-belə, mən teatr aləmindəyəm deyə gəlib ora sədrlik etməklə olmur. Kim bunu bu qədər asan hesab edir və belə düşünürsə, səhv edir. Qaldı ki iddialılara, bura gəlmək istəyinə, bu, onların şəxsi fikri, arzusu, azad düşüncəsidir. Amma mənə elə gəlir ki, bura gələn xalq tərəfindən, dövlət tərəfindən tanınmalıdır. Ən əsası da buranın işini bilməlidir. Elə adam olmalıdır ki, onun xalq qarşısında xidmətləri, nüfuzu olsun. Gedib kiməsə nə isə deyəndə bilsinlər ki, bu şəxs sənətdə yetişən, ona xidmət edən adamdır. Yəni otaqda oturub əmr verməklə iş bitməz. Bura yaradıcı, ictimai təşkilatdır.

*– Ruhu şad olsun, Azərpaşa Nemətov da, siz deyən kimi, nüfuzlu, sözükeçən adam idi. Hərçənd ondan da gileyli olanlar çox idi...*

– Azərpaşa Nemətov unikal adam idi. O, daim düşünürdü və yüksək səviyyəni, ittifaqın hörmətini saxlamağa çalışırdı. Hər şeylə razılaşıb, hər adamı qəbul eləmirdi. Ağıllı insanıydı deyə, o adamın niyə gəldiyini, nə istədiyini gözəl başa düşürdü. Bu mənada ondan inciyənlər, narazı qalanlar da olurdu. Amma unutmaq olmaz ki, o, peşəkar insan idi, şəxsiyyət idi. Yenə də deyirəm, çalışırdı ki, ittifaqın adı uca olsun, təşkilat kimi nüfuzunu saxlasın.

*– Gəlin, sizli-bizli oktyabradək səbir edək və keçək aktyor Hacı İsmayılovla söhbətə.*

– (Gülür) Vallah, elə bayaqdan aktyor Hacı danışırdı. Mənim üçün səlahiyyət, vəzifə, nüfuz, şöhrət sənətimdə, xalqımın, dövlətimin sevgi və diqqətindədir.

*– Lap gözəl. Hacı müəllim, Azərbaycan kinosunun unikal Mustafası sizsiniz. Onun bir lotereyada udmaq arzusu vardı. Sizin necə, şansınızı sınamaq istəyiniz olubmu?*

– (Gülür). Aktyorların oynadığı rollar onların həyatlarına da təsir edir. Bunu özümdə də, başqalarında da görmüşəm. Mən o lotereyanın çoxdankı həvəskarıyam. Ara-sıra bir-ikisini alıb pozuram, həvəsimi öldürürəm. Qabaqlar udmaq daha yaxşı, asan idi. İndi çətinləşib. Yadımdadır, sovet vaxtı aldığım 30 qəpiklik lotereyadan radio udmuşdum. Rəhmətlik atam günün xeyli hissəsini o radioya qulaq asmaqla keçirərdi. Şansdır da o da. Al, sına. Şəkili Mustafa demişkən, "heç olmasa, bir dənə latarenni bilet al".

*– Teatrda fəaliyyətə başlayıb, kinoda məşhurlaşdınız. Necə deyərlər, lotereya biletinizi kinoda uddunuz. Bu mənada özünüzü kinoya minnətdar sayırsınızmı?*

– Hər iki sənətə minnətdaram. Kinoya çəkilmədən öncə teatr aktyoru olmuşam və 1967-ci ildən fasiləsiz teatrda fəaliyyət göstərirəm. İrəvan, Sumqayıt və hazırda çalışdığım Akademik Milli Dram teatrları. Mənim üçün teatr həyatdır. Orada yaşayıram. Kino isə məhəbbətdir. Nə xoş ki, şans kimi o da sənət taleyimdə mənim üçün yaxşı gətirdi və kinoda qısa zamanda tanındım. Amma hərdən düşünürəm ki, kinoda daha çox işlər görə bilərdim. Onun həcmi, auditoriyası, imkanları daha genişdir. Aktyorlar burada sənətlərini daha rahat büruzə verə bilirlər, nəinki teatrda. Teatr kinoya nisbətən bir qədər qapalıdır. Teatrda tamaşaçını qrimlə, geyimlə, səslə qismən aldada, inandıra bilərsən. Amma kinoda belə deyil. Kino səmimiyyət və təbiiliyi sevir. Çünki orada hər şey iri plandadır və tamaşaçının gözündən heç nə yayınmır. Mən bu mənada bir aktyor kimi görkəmli rejissorumuz Rasim Ocaqova minnətdaram. Onun sayəsində kəşf olundum və kinoda yolum açıldı.

> "İttifaqa rəhbərlik etmək istəyənin nüfuzu olmalıdır, sözü keçməlidir. Xalq tərəfindən, dövlət tərəfindən tanınmalıdır. Elə-belə, mən teatr aləmindəyəm deyə gəlib ora sədrlik etməklə olmur"

*– Müqayisəniz maraqlıdır deyə soruşacağam. Peşəkar Azərbaycan teatrı 151-ci ilini yaşayır. Zamana görə milli kinomuzdan daha yaşlı teatrımızın indiki halda ən ümdə vəzifələri hansılardır?*

– Teatrın vəzifələri daha çoxdur. O məbəddir, tərbiyə ocağıdır. Orada çalışanlar isə fədaidirlər. Xüsusən də bölgədə çalışan aktyorlar. Çünki aldıqları maaş azdır. Əlavə qazanc yerləri də, demək olar ki, yox. Düzdür, aktyor, teatr adamı elə onda da, indi də varlı olmayıb onsuz da. Amma müqayisədə Bakıda çalışan aktyorlar onlara nisbətdə maddi baxımdan daha geniş imkanlara malikdirlər. Seriallar, reklamlar, dublyaj və s. var. Amma bölgələrdə bu imkanlar azdır. Bu mənada əsl fədakar insanlar onlardır. Az şeyə qane olublar. Çünki sənətə məhəbbətləri daha çoxdur və onu qoyub gedə bilmirlər.

*– Bu mənada ittifaqdan hər hansı dəstək görürlərmi və ittifaqın belə bir imkanı varmı?*

– Əslində, elə bir imkanımız yoxdur. Olan vəsaitlə biz tədbirlər təşkil edir, onların paytaxt tamaşaçıları ilə görüşünə şərait yaradırıq. Bildiyiniz kimi, bir neçə il öncə ittifaqlara dövlət tərəfindən müəyyən vəsait ayrılmışdı. Biz o vəsaitin əsas hissəsini Ağdam və Füzuli teatrlarına sərf etdik. Onların səhnə geyimləri, texniki imkanları bərbad idi. Sözsüz ki, dövlət, əsas qurum kimi Mədəniyyət Nazirliyi bu problemləri həll etməyə çalışır. Amma bu elə də asan deyil. Məsələn, çox yaxşı olardı ki, teatrlar heç olmasa, kommunal xərclərdən azad olunsun. Bu kimi güzəştlər təkcə bizdə deyil. Bunu birdən-birə yox, müəyyən faizdə azalma ilə də eləmək olar. Çox istərdim ki, özəl şirkətlər də, böyük qurumlar da arabir teatrlara dəstək olsunlar. Dövlət olaraq bu gün əsas məsələmiz Qarabağın dirçəlişidir. Min şükür ki, əzəli torpaqlarımıza qovuşduq və hazırda dövlətimiz azad Qarabağımızı yenidən qurur. Bütün bunlara rəğmən dövlətimiz mədəniyyət sahəsinə, teatra da diqqətlə yanaşır, maddi təminatına dəstək üçün addımlar atır və buna görə dövlət başçımıza daim minnətdarıq.

*– Necə düşünürsünüz, bu gün Azərbaycan teatrı geniş tamaşaçı kütləsini cəlb etməyə, cəmiyyətə sənətlə həqiqəti göstərməyə qadirdirmi?*

– Mən sizə bir həqiqəti deyim ki, digərlərini deyə bilmərəm. Mən çalışdığım teatrın tamaşalarının sonunu çox diqqətlə izləyirəm. Yəni təzim məqamını. Bu qənaətə gəlmişəm ki, yeni nəsil tamaşaçı yaranıb. O nəsil ki, teatra gəlmirdi. Əvvəllər teatra gələnlər daha çox ya yaşlı nəsil, ya da ziyalılar idi. Amma indi tamaşa salonuna baxanda çoxluq olaraq gəncləri görürəm və çox sevinirəm. Bu, çox yaxşıdır və inanıram ki, digər teatrlarda da belədir. Yəni tamaşaçıların teatra, sənətə tələbatı, ehtiyacı yaranıb. Axı teatr yeganə sənətdir ki, o, insanla nəfəs-nəfəsə, üz-üzə dayanır. Yəni canlı sənət olduğu üçün yeni nəsil tamaşaçı teatrdan intellekti, zövq və düşüncəsinə uyğun fərqli mövzu və janrlı nümunələr görür.

*– Sizin nəsildən olan aktyorların sayı azalıb. Ötənlərdə bir tədbirdə çıxışınız məni kövrəltdi. Deyəsən, çox darıxırsınız...*

– Hə, həm də necə. Axı mən onlarla teatrda, səhnədə bir ömür sürmüşəm.

*– 80 yaşa çatmağın sevinci böyükdür, yoxsa nostalgiyası? Bu sualı bir neçə həmyaşıdınız olan həmkarınıza da vermişəm.*

– Vallah, heç təsəvvür etməzdim ki, 80 il yaşayaram. Min şükür Yaradana, mənə də bu yaşı görməyi nəsib elədi. Azərbaycan teatrında elə görkəmli aktyorlar olublar ki, heç 40-ı, 50-ni görməyiblər. Yaradıcılıqlarının ən parlaq zamanında həyatla vidalaşıblar. Çünki bu sənət məşəqqətli, fiziki və mənəvi cəhətdən əzab-əziyyətlidir axı. Düzdür, tamaşaçı onun parlaq, populyar tərəfini görür. Amma bizlər ora çatana qədər nələrdən keçməmişik. Eh, əslində, yaş bir az da genetik məsələdir yəqin. İndi deyirəm nə yaxşı ki, bu yaşa çatdım. Çünki həyat çox maraqlıdır. Deyir yaşlanmaq, qocalıq seçilmişlərə verilən hədiyyədir. Hər adama bu imkan verilmir. Min şükür.

*– Kinoda baş rollarınız olsa da, teatrda sizi daha çox ikinci planın qəhrəmanı saymaq olar. İndi geriyə dönüb baxanda bu barədə nə düşünürsünüz? Əgər aktyorun bu məsələdə taleyi rejissordan asılıdırsa...*

– Aktyor cəhd edir. Amma sözsüz ki, rejissor təyin edir bunu. Bir də niyə elə düşünürsünüz ki, mən baş rollarım olmayıb? Məsələn, "Sizi deyib gəlmişəm"də, "Alın yazısı"nda baş rollar oynamışam. Aktyorun ampluasını təyin edən rejissorlar olur. Düzdür, cavan vaxtı mənim də Hamlet oynamaq arzularım vardı. Amma artıq o hisslər də çox uzaqdadır. Aktyor kimi nə rol verilibsə, onunla razılaşmışam. İlk rolum "Xırs quldurbasan"da Kərəm olub. Onun da cəmi iki sözü vardı: "Qaçsa, qaçar e". Onu elə deyirdim ki, tamaşaçı gülürdü. Rejissorlar da mənə ondan sonra inandılar və zamanla daha böyük rollar verməyə başladılar.

*– Hacı müəllim, səhnədə də, kinoekranda da əsas qəhrəmanlarınız yazıq, fağır, sakit, sadəlövh adamlar olublar. Həyatda necə?*

– Bəli, oynadığım obrazlar təbiətcə belədir. Oynadığım rolların insani keyfiyyətləri çoxdur deyə kənardan elə görünürlər. Onları çox sevirəm. Təmiz, saf, vicdanlı adamlardır. Fağır, yazıq sözünü qəbul etmirəm. Özümə gəlincə, sadəlövh deyiləm.

*– Deməli, həyatda Mustafa müəllim deyilsiniz?*

– Mustafa mənim daxilimdədir. Amma bir az fərqli.

*– "Bəyin oğurlanması"ndakı operatorun təbiri ilə desək...*

– (Gülür) Hə, "Elə səni görməsələr yaxşıdır"ı deyirsiniz? Maraqlıdır ki, o filmlərdəki obrazların sözləri qısa zamanda belə əzbərə çevrildi. Ötənlərdə bir tədbir vardı. Birdən işıqlar söndü. Əhvalımı pozmadan tamaşaçılardan "Ay camaat, məni eşidirsiz?" deyə soruşdum. Ardınca "Elə məni görməsəniz yaxşıdır" dedim və zal qəhqəhəyə qərq oldu. Obrazlarım, məni sevdirən qəhrəmanlarım daim mənimlə bax belə yol yoldaşıdır. Yaxşı ki, bir-birimizi yarı yolda qoymamışıq.

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 17 – 22 may

### Azərbaycan

**17 may 1870** – Görkəmli yazıçı-dramaturq, publisist Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev (1870 – 11.12.1933) Şuşada anadan olub. "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəri cadu", "Ac həriflər" və s. pyeslərin, hekayələrin ("Marallarım" silsiləsi) müəllifidir. Rus dilindən ədəbi tərcümələr edib. Teatr tamaşalarına quruluş verib. Bakı Dövlət Universitetində dərs deyib.

**17 may 1938** – Əməkdar incəsənət xadimi, televiziya diktoru, rejissor Arif Lətif oğlu Qazıyev (1938 – 24.2.2022) Gəncədə doğulub. "Muğam" teatrının rəhbəri olub. Musiqili telefilmlərin ("Şur", "Təsnif") müəllifidir.

**18 may 1906** – Filosof alim, professor Mehbalı Məhəmməd oğlu Qasımov (1906–1963) Naxçıvan MR Culfa rayonunun Xoşkeşin kəndində doğulub.

**18 may 1933** – Ədəbiyyatşünas, biblioqraf, tərcüməçi Əmin Tahir oğlu Əfəndiyev (1933–2014) Qax rayonunun İlisu kəndində doğulub.

**18 may 1968** – Əməkdar incəsənət xadimi, aşıq İslam Qara oğlu Yusifov (1893–1968) vəfat edib.

**18 may 2010** – Tanınmış aktrisa Ofeliya Rza qızı Əfqanlı (Ofeliya Aslan; 27.1.1939 – 18.5.2010) vəfat edib.

**19 may 1898** – Xalq artisti, opera müğənnisi Hüseynağa Soltan oğlu Hacıbababəyov (1898 – 10.11.1972) Şamaxıda doğulub. Opera partiyaları ilə yanaşı, muğam və xalq mahnılarının mahir ifaçısı olub.

**19 may 1910** – Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı Rəsul Rza (Rəsul İbrahim oğlu Rzayev; 1910 – 1.4.1981) Göyçayda doğulub. "Qız qalası", "Lenin", "Qızılgül olmayaydı" poemaları, "Rənglər" şeirlər silsiləsi, "Vəfa", "Görüş" pyesləri və s. əsərlərin müəllifidir. Rus ədəbiyyatından tərcümələr edib. Azərbaycan Yazıçılar İttifaqının sədri (1938–1939), kinematoqrafiya naziri (1945–1948) olub.

**19 may 1935** – Şair və tərcüməçi, Əməkdar incəsənət xadimi Vladimir Əbdüləzim oğlu Qafarov (1935 – 19.7.2000) Sabirabad rayonunda anadan olub. Klassik və müasir Azərbaycan şairlərinin bir çoxunun əsərləri onun tərcüməsində rusdilli oxuculara təqdim olunub.

**19 may 1939** – Tanınmış yazıçı-publisist, türkoloq Əhməd bəy Ağaoğlu (Əhməd bəy Mirzə Həsən oğlu Ağayev; 1869, Şuşa – 1939) İstanbulda vəfat edib. "Kaspi", "Həyat" qəzetlərinin redaktoru olub. İstanbul Universitetində dərs deyib. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü seçilib. Cümhuriyyətin süqutundan sonra Türkiyədə yaşayıb.

**19 may 1959** – Xalq artisti Yeva (Yevgeniya) Nikitiçna Olenskaya (1900–1959) vəfat edib. Qubada doğulub. 1919-cu ildən Dövlət Dram Teatrının aktrisası olub.

**19 may 2022** – Xalq artisti, teatr rejissoru Vaqif Firudin oğlu Əsədov (5.4.1947 – 2022) vəfat edib. Naxçıvan Dövlət Musiqili Dram Teatrında işləyib. 1989-cu ildən Dövlət Gənc Tamaşaçılar Teatrında fəaliyyət göstərib.

**20 may 1883** – Xalq artisti, vokalçı Konstantin Lvoviç Knijnikov (1883–1952) anadan olub. Azərbaycan Dövlət Opera və Balet Teatrında çalışıb, Azərbaycan Dövlət Konservatoriyasında dərs deyib.

**20 may 1888** – Görkəmli şair və maarifçi Seyid Əzim Şirvani (Seyid Əzim Seyid Məhəmməd oğlu Mir Cəfərzadə; 9.7.1835 – 1888) vəfat edib. Azərbaycan şairlərinin tərcümeyi-halını və əsərlərindən nümunələri kitab ("Təzkirə") şəklində nəşr etdirib.

**20 may 1884** – Ədəbiyyatşünas və şair Salman Mümtaz (Salman Məmmədəmin oğlu Əsgərov; 1884–1941) Şəkidə anadan olub. Klassik ədiblərimizin əlyazmalarını toplayıb. "Azərbaycan ədəbiyyatının qaynaqları" kitabını yazıb.

**20 may 1907** – Milli səhnəmizdə çıxış edən ilk azərbaycanlı qadın müğənnilərdən biri, Xalq artisti Həqiqət Əli qızı Rzayeva (1907 – 2.8.1969) Lənkəranda doğulub. Opera və Balet Teatrının solisti olub, filmlərdə ("Ögey ana") çəkilib.

**20 may 1920** – Tanınmış filosof, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Ziyəddin Bahadur oğlu Göyüşov (1920-1984) Ağdam rayonunun Boyəhmədli kəndində anadan olub.

**20 may 1929** – Folklorşünas alim Mürsəl İsmayıl oğlu Həkimov (1929–2006) Qazax rayonunun Kəmərli kəndində doğulub.

**20 may 1940** – Əməkdar mədəniyyət işçisi, rejissor Rafiq Atakişiyev (1940 – 27.9.2012) Füzuli rayonunda anadan olub. Musiqili Komediya, Ağdam, Gəncə teatrlarında çalışıb.

**20 may 2021** – Əməkdar artist, rəqqas Qorxmaz Ağababaoğlu Qurbanov (18.7.1940 –2021) vəfat edib.

**21 may 1922** – Şairə, dramaturq Cahan Hüseyn qızı Əfruz (Dilanova; 1922–1984) Tovuz rayonunda doğulub.

**21 may 1928** – Azərbaycanın Əməkdar artisti, Rusiyanın Xalq artisti Tamilla Mirsüca qızı Ağamirova (1928 – 31.8.2021) Bakıda anadan olub. 1952-ci ildən Moskvada "Romen" teatrında çalışıb. "Azərbaycanfilm" kinostudiyasında "Onun böyük ürəyi", "Yenilməz batalyon" və s. filmlərə çəkilib.

**21 may 2021** – Azərbaycanın, Rusiyanın və keçmiş SSRİ-nin Xalq rəssamı, Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Tahir Teymur oğlu Salahov (28.11.1928 – 2021) vəfat edib.

**22 may 1888** – Yazıçı, maarif xadimi Qantəmir (Qafur Sədrəddin oğlu Əfəndiyev; 1888 – 28.1.1944) Göyçay mahalının Potu kəndində anadan olub. 1939-cu ildə Orta Asiyaya sürgün edilib, orada dünyasını dəyişib.

**22 may 1918** – SSRİ Xalq artisti, görkəmli rejissor, teatrşünas, professor, Dövlət mükafatı laureatı Mehdi Əsədulla oğlu Məmmədov (1918 – 28.1.1985) Şuşada doğulub. Gəncə Dram, Akademik Opera və Balet, Akademik Milli Dram, Rus Dram teatrlarında baş rejissor işləyib.

**22 may 1928** – Xalq rəssamı Nadir Sadıq oğlu Qasımov (1928 – 10.3.2000) Bakıda anadan olub.

**22 may 1937** – Bəstəkar, Xalq artisti Aqşin Əliqulu oğlu Əlizadə (1937 – 3.5.2014) Bakıda anadan olub. "Babək", "Qafqaza səyahət" baletləri, kantata, simfoniya və digər janrlarda əsərlərin müəllifidir. Filmlərə ("Tütək səsi", "Sizi dünyalar qədər sevirdim") musiqi yazıb.

### Dünya

**17 may 1873** – Fransız yazıçısı Anri Barbüs (Henri Barbusse; 1873–1935) anadan olub. Əsərləri: "Alov", "Gerçək əhvalatlar" və s.

**17 may 1904** – Fransız aktyoru Jan Qaben (Jean Gabin - Jean-Alexis Moncorge; 1904–1976) anadan olub.

**18 may 1048** – Fars (tacik) şairi, filosof, astronom və riyaziyyatçı Ömər Xəyyam (Qiyasəddin Əbu əl-Fəth Ömər ibn İbrahim Xəyyam Nişapuri; 1048 – 4.12.1131) anadan olub.

**18 may 1869** – Ləzgi Xalq şairi, aşıq Süleyman Stalski (Həsənbəyov; 1869–1937) anadan olub.

**18 may 1872** – İngilis filosofu, ictimai xadim, ədəbiyyat üzrə Nobel mükafatı (1950) laureatı Bertran Rassel (Bertrand Arthur William Russell; 1872–1970) anadan olub.

**19 may 1762** – Alman filosofu Yohann Qotlib Fixte (Johann Gottlieb Fichte; 1762–1814) anadan olub.

**19 may 1898** – İtalyan yazıçısı və mütəfəkkiri Yulius Evola (Julius Evola; 1898–1974) anadan olub.

**20 may 1799** – Fransız yazıçısı Onore de Balzak (Honore de Balzac; 1799 –18.8.1850) anadan olub.

**20 may 1804** – Rus bəstəkarı Mixail İvanoviç Qlinka (1804–1857) anadan olub. "İvan Susanin", "Ruslan və Lyudmila" operalarının müəllifidir.

**20 may 1882** – Norveç yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1928) laureatı Siqrid Unset (Sigrid Undset; 1882–1949) anadan olub.

**20 may 1923** – Cənubi Afrika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1991) laureatı Nadin Qordimer (Nadine Gordimer; 1923 – 13.7.2014) anadan olub.

**21 may 1471** – Alman boyakarı, qravüraçı və incəsənət nəzəriyyəçisi, İntibah dövrünün məşhur rəssamı Albrext Dürer (Albrecht Dürer; 1471–1528) anadan olub.

**22 may 1813** – Alman bəstəkarı, dramaturq Rixard Vaqner (Wilhelm Richard Wagner; 1813–1883) anadan olub. Operaları: "Tristan və İzolda", "Nibelunqlar üzüyü" (tetralogiya).

**22 may 1859** – İngilis yazıçısı Artur Konan Doyl (Arthur Conan Doyle; 1859–1930) anadan olub.

**Hazırladı: V.Orxan**

№38 (2103)
22 may 2024
www.medeniyyet.az

# "Bakıdan Romaya: müxtəlifliklədə musiqi birliyi"



## Azərbaycanlı ifaçıların konsert proqramı

İtaliyanın paytaxtı Romanın Kapitolini Muzeylərinin Protomoteka zalında azərbaycanlı ifaçıların iştirakı ilə konsert proqramı təqdim edilib.

Konsertdən öncə Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanov səhnəyə çıxaraq qonaqları salamlayıb. Qeyd olunub ki, "Bakıdan Romaya: müxtəliflikdə musiqi birliyi" adlı konsert proqramı səfirliyin dəstəyi, Roma Şəhər Bələdiyyəsinin təşkilatçılığı ilə 18 may – Beynəlxalq Muzeylər Günü münasibətilə keçirilir.

Konsert proqramında Əməkdar artist, tarzən Sahib Paşazadə və fortepianoda Prezident təqaüdçüsü, beynəlxalq müsabiqələr laureatı Firuzə Bəylərova çıxış ediblər. Proqramda Azərbaycan və dünya bəstəkarlarının əsərləri səsləndirilib, həmçinin milli musiqimizdən nümunələr ifa olunub.

Azərbaycan musiqiçilərinin ifaları alqışlarla qarşılanıb.

# "Xalqların mədəni ənənələri və mətbəxi"

## Daşkənddəki festivalda ölkəmiz də təmsil olunub

Özbəkistanın Xarici İşlər Nazirliyi tərəfindən Daşkənddə təşkil edilmiş 20-ci "Xalqların mədəni ənənələri və mətbəxi" festivalında ölkəmiz də təmsil olunub.

Tədbirdə Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) tərəfindən milli stendimiz nümayiş olunub.

Guşədə müxtəlif kitablar, o cümlədən Azərbaycanın tarixi və mədəniyyəti, milli mətbəxi ilə bağlı nəşrlər nümayiş etdirilib. Azərbaycan mədəniyyətinə dair suvenirlər, Qarabağın milli kişi və qadın geyimləri də iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Azərbaycan guşəsinə gələnlərə kitab və jurnallar hədiyyə olunub, milli mətbəximizin təamları və şirniyyatlarımız təklif edilib.

İştirakçı ölkələrin mahnı və rəqsləri festivala rəng qatıb. Konsertdə AMM-in rəqs ansamblının üzvləri Azərbaycan rəqslərini ifa ediblər.

Festivalda iştirakına görə Azərbaycan stendi xüsusi diploma layiq görülüb.



Qeyd edək ki, ənənəvi festivalda satışı təşkil edilən yemək və suvenirlərdən əldə olunan vəsait Özbəkistandakı xüsusi internat məktəblərinə verilir.



# Qəzamı, yoxsa qəsdmi?...

## Aviasiya qəzalarında həlak olan dünya liderləri

Xəbər verildiyi kimi, mayın 19-da İranın Şərqi Azərbaycan əyalətində baş verən helikopter qəzası zamanı Prezident İbrahim Rəisi, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan və ölkənin digər yüksəkvəzifəli şəxsləri həlak olublar.

Bu hadisə dünya mediasında fərqli yönləri və hələ bəlli olmayan təfərrüatı ilə geniş rezonans doğurmaqla yanaşı, müxtəlif ölkələrdə baş vermiş bənzər aviaqəzaları da yaddaşlarda təzələyib. Qeyd olunur ki, indiyədək 10-dan artıq dövlət və hökumət başçısı bu cür hadisələrdə dünyasını dəyişib.

7 sentyabr 1940-cı ildə Paraqvayda "Potez 25" hərbi təyyarəsinin qəzaya uğraması nəticəsində ölkə Prezidenti, marşal Xose Feliks Estiqarribia ölüb.

17 mart 1957-ci ildə Filippinin rəhbəri Ramon Maqsaysay ölkə ərazisində "Duqlas C-47 Skytrain" sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olub.

13 aprel 1966-cı ildə İraq Prezidenti Əbdül Salam Aref təyyarə qəzası nəticəsində həyatını itirib.

27 aprel 1969-cu ildə Boliviya Prezidenti Rene Barriendos Ortuno ölkə ərazisində helikopter qəzası nəticəsində həlak olub. Vertolyot elektrik xəttinə toxunaraq yerə düşüb.

24 may 1981-ci ildə Ekvador Prezidenti Xayme Roldos Aqilerarın içində olduğu "Beechcraft Super King Air" təyyarəsi Perunun cənubunda dağlara çırpılıb.

19 oktyabr 1986-cı ildə Mozambikdə ölkə başçısı Samora Macel və hökumət nümayəndə heyəti yerli aviaşirkətə aid "TU-134A-3" sərnişin təyyarəsinin qəzaya düşməsi nəticəsində həlak olub. Təyyarəni sovet uçuş heyəti idarə edirmiş.

17 avqust 1988-ci ildə – Pakistan Hərbi Hava Qüvvələrinə məxsus "Lockheed C-130 Hercules" təyyarəsi Bahavalpur hava limanından havaya qalxandan az sonra qəzaya uğrayıb. Pakistan Prezidenti Məhəmməd Ziya-ül-Həq, ABŞ-nin bu ölkədəki səfiri Arnold Lyuis Rafel və digər sərnişinlər həlak olublar.

Bu hadisələrlə bağlı pilot səhvindən sui-qəsdə qədər müxtəlif versiyalar irəli sürülsə də, gerçək üzə çıxmayıb.

6 aprel 1994-cü ildə Ruandanın Kiqali hava limanı yaxınlığında Ruanda və Burundi prezidentləri Juvenal Habyarimana və Kiprien Ntaryamira "Dassault Falcon 50" təyyarəsi yer-hava raketi ilə vurulması nəticəsində ölüblər.

26 fevral 2004-cü ildə Makedoniya Prezidenti Boris Traykovski "Beechcraft Super King Air 200" təyyarəsi Bosniyanın Mostar şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həyatını itirib.

10 aprel 2010-cu ildə Polşa Hərbi Hava Qüvvələrinə məxsus "TU-154M" sərnişin təyyarəsi Rusiyanın Smolensk şəhərində aeroporta eniş edərkən qəzaya düşüb. Prezident Lex Kaçinski və Polşa siyasi və hərbi elitasının nümayəndələri də daxil – ümumilikdə 89 sərnişin və 7 ekipaj üzvü həlak olub.

# "Qızıl palma budağı" kimlərə qismət olacaq?

14–25 may tarixlərində 77-ci Kann Film Festivalı keçirilir. "Qızıl palma budağı" uğrunda əsas müsabiqə proqramına 19 film daxildir.




Dünya kino ustalarından ünlü rejissor Frensis Ford Koppola festivala özünün yeni "Meqapolis" filmini gətirib. Devid Kronenbergin "Kəfən", Yorqos Lantimosun "Xeyirxahlıq növləri" filmləri də mükafata iddiaçılar arasındadır.

Bu il festivalın münsiflər heyətinə "Ledi Bird" və "Barbie" filmlərini çəkən amerikalı xanım rejissor Qreta Gerviq (Greta Gerwig) başçılıq edir. "Qızıl palma budağı"nı kimin alacağına qərar verəcək beynəlxalq jüridə türkiyəli ssenarist və fotoqraf Ebru Ceylan (Kann festivalının mükafatçısı, məşhur rejissor Nuri Bilge Ceylanın həyat yoldaşı) da yer alıb.

Festivalın müsabiqədənkənar proqramları da var. Qısametrajlı filmlər nümayişi sırasına azərbaycanlı rejissor Azər Quliyevin "Sanki yoxsan" adlı ekran işi də daxil edilib.

77-ci Kann Film Festivalı çərçivəsində müsabiqədənkənar göstərilməsi planlaşdırılan İsrail istehsalı olan "Bearing Witness" ("Şahid", 2023) filminin nümayişi isə son anda təxirə salınıb. Bildirilir ki, film HƏMAS-ın İsrail şəhərlərinə hücumundan bəhs edir. Filmə 7 oktyabr 2023-cü il hücumunun şahidləri və fələstinli silahlıların özləri tərəfindən lentə alınan kadrlar daxildir. Filmin nümayişinin təhlükəsizlik səbəbindən ləğv edildiyi xəbər verilir.

**V.Kamal**

# Türkiyədə il ərzində 700-dən çox arxeoloji ekspedisiya aparılır

Türkiyənin cənub-qərbində Denizli vilayətindəki qədim Laodikeya yaşayış yeri ərazisində qazıntı işləri aparan arxeoloqlar qrupu yunan mifologiyasında sağlamlıq ilahəsi Higeyanın heykəlinin bir hissəsini aşkar ediblər.



2100 il əvvələ aid olduğu bildirilən artefaktı Pamukkale Universitetinin professoru Cəlal Şimşeyin rəhbərlik etdiyi mütəxəssislər tapıblar.

Yunan mifologiyasında Higeya çox vaxt sol əlində fincan, sağ əlinə sarılmış ilanla təsvir edilir. Arxeoloqların üzə çıxardığı heykəl parçasında onun baş hissəsi əks olunub.

Qeyd edək ki, müasir Türkiyənin yerləşdiyi coğrafiya dünyanın ən qədim sivilizasiyalarına məskən olub. Ölkənin müxtəlif yerlərində arxeoloji ekspedisiyaların sayı ildən-ilə artır. Türkiyədə arxeoloji qazıntı və tədqiqatların sayının bu ilin sonuna kimi 750-yə, 2026-cı ilə qədər isə 800-ə çatacağı gözlənilir.

# Ən zəngin numizmatika kolleksiyası satışa çıxarılır

Danimarkalı iş adamı və kolleksiyaçı Lars Emil Brunun XX əsrin əvvəlində topladığı nadir sikkə kolleksiyası hərraca çıxarılacaq.



Emil Brun 1922-ci ildə bu kolleksiyanı bir varlı ailədən alıb, bir il sonra isə dünyasını dəyişib.

Məlumata görə, Birinci Dünya müharibəsinin fəlakətlərinə şahid olan kolleksiyaçı topladığı əşyaların ölümündən sonra 100 il milli sərvət kimi saxlanılmasını vəsiyyət edib. Bu müddət 2023-cü ilin sonunda başa çatıb. İndi isə 20 mindən çox sikkənin toplandığı kolleksiya hərraca çıxarılmaq üçün hazırlanır. Ekspertlər əşyaların 72 milyon dollara satılacağı qənaətindədir.

Emil Brun ölümündən əvvəl kolleksiyanın təkrar satılacağı təqdirdə Danimarka Milli Muzeyinin imtiyazlı alıcı hüququ olması şərtini də qoyubmuş. Danimarka Milli Muzeyi artıq kolleksiyadakı XVI-XVII əsrlərə aid 7 sikkəni satın alıb.

Filadelfiyada (ABŞ) yerləşən "Stack's Bowers" hərrac evinin məlumatına görə, indiyədək bu qiymətdə numizmatika kolleksiyası satışa çıxarılmayıb.

## Xronoqraf

# Tarixdə bu gün

## Olaylar, faktlar (17 – 22 may)

### 385 il əvvəl...

**17 may 1639-cu ildə** Səfəvi və Osmanlı dövlətləri arasında növbəti müharibənin (1623–1639) yekunlarına əsasən, Qəsri-Şirin sülh müqaviləsi bağlanıb. Müqavilədə tərəflər arasında 1555-ci ildə bağlanmış Amasya sülhünün şərtləri təsdiqlənib. Həmin şərtlərə görə, indiki Gürcüstanın qərb vilayətləri Osmanlının, Gürcüstanın şərq hissəsi, habelə Azərbaycanın Borçalı mahalı, Qərbi Azərbaycan (indiki Ermənistan ərazisi), eləcə də şimallı-cənublu Azərbaycan torpaqları Səfəvilərin nəzarətinə keçmişdi.

### 219 il əvvəl...

**21 may 1805-ci ildə** Rusiya-İran müharibəsi (1804–1813) gedişində Şəki xanlığının Rusiyaya birləşdirilməsinə dair ikinci Kürəkçay müqaviləsi bağlanıb. Şəki hakimi Səlim xan və Rusiyanın Qafqaz qoşunlarının komandanı general Sisianov tərəfindən imzalanan müqaviləyə əsasən, ruslar xanlığa nisbi özünüidarə vəd etmişdi. Mayın 14-də bağlanan birinci Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı da eyni vədlə Rusiyaya ilhaq edilmişdi.

### 105 il əvvəl...




**19 may 1919-cu ildə** Mustafa Kamal Atatürk bir qrup silahdaşı ilə Qərb dövlətlərinin faktiki işğalı altında olan İstanbuldan Samsuna gələrək Türkiyənin qurtuluş və istiqlal savaşının başladığını elan edib.



Atatürkün rəhbərliyi ilə milli mücadilə 1923-cü ildə Türkiyə Cümhuriyyətinin yaranması ilə başa çatdı. 19 may Türkiyədə Atatürkü Anma, Gənclik və İdman Bayramıdır.

### 104 il əvvəl...

**18 may 1920-ci ildə** Azərbaycan SSR Müvəqqəti İnqilab Komitəsi (hökumət) "Teatr, kino, muzey və foyelərin milliləşdirilməsi haqqında" dekret verib.

### 80 il əvvəl...

**17 may 1944-cü ildə** SSRİ rəhbəri Stalinin qərarı ilə Rusiya Federasiyası tərkibində Krım MSSR ləğv edilib. Mayın 18-nə keçən gecə 200 minə yaxın Krım tatarı (türk) Orta Asiya, Ural və Volqaboyuna deportasiya olunub. Krım tatarları Stalinin ölümündən sonra reabilitasiya olunsalar da, yalnız 80-ci illərdə Krıma qayıda bildilər.

### 52 il əvvəl...

**20 may 1972-ci ildə** Qərbi və Şərqi Kamerun birləşərək unitar dövlətə çevrilib. Birinci Dünya müharibəsi zamanı Kamerun Fransa və Britaniya tərəfindən parçalanmışdı. 1960-cı illərdə iki ayrı dövlət müstəqillik qazanmışdı.

### 34 il əvvəl...

**19 may 1990-cı ildə** Ali Sovetin sessiyasında Azərbaycan Respublikasının Prezidenti vəzifəsi təsis edilib. Azərbaycan KP MK-nın birinci katibi Ayaz Mütəllibov Ali Sovet deputatlarının səsverməsi ilə prezident seçilib.



**22 may 1990-cı ildə** Yəmən Ərəb Respublikası (Şimali Yəmən) və Yəmən Xalq Demokratik Respublikası (Cənubi Yəmən) birləşib, vahid Yəmən Respublikası yaranıb. Ərəbistan yarımadasında yerləşən Yəmən XVIII əsrdən Osmanlının nəzarətində idi, 1839-cu ildə Britaniya protektoratlığına keçmişdi. 1918-ci ildə Şimali Yəmən, 1967-ci ildə Cənubi Yəmən müstəqillik qazanmışdı.

### 32 il əvvəl...

**18 may 1992-ci ildə** Ermənistan silahlı qüvvələri Azərbaycanın Laçın rayonunu işğal ediblər. 28 ildən artıq işğal altında qalan Laçın rayonu 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq 2020-ci ilin 1 dekabrında azad edildi.

### 30 il əvvəl...

**22 may 1994-cü ildə** beynəlxalq birlik Yuqoslaviyanın parçalanması faktını tanıyıb. Bosniya və Herseqovina, Xorvatiya və Sloveniya BMT-yə qəbul edilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1165
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641